Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 267 (7994) ÇƏRŞƏNBƏ AXŞAMI, 27 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# AZƏRBAYCAN ETİBARLI TƏRƏFDAŞDIR

## Prezident İlham Əliyevin ötən həftə Belarus və Türkmənistana rəsmi səfərləri bunu bir daha təsdiq edir

İnkişafı və müstəqil siyasəti ilə fərqlənən, Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanın bütün sahələr üzrə əldə etdiyi uğurlar olduqca sanballı və çoxşaxəlidir. Bu, cəmi 26 illik müstəqillik tarixi olan respublikanın beynəlxalq münasibətlər sistemində böyük nüfuz və dərin ehtiram qazanmasını, söz sahibi olan dövlətlərlə bir sırada dayanmasını təmin edib.

### Azərbaycanın sınanmış müttəfiqi

Başqa bir reallıq isə Azərbaycanın uğurlarının bütün dünyada etiraf edilməsi, ölkəmizlə əməkdaşlığın dərinləşdirilməsi, qazandığımız təcrübənin öyrənilməsi barədə təkliflərin səsləndirilməsidir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti ilə görüşən xarici ölkələrin rəsmiləri - dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri Cənubi Qafqazın lideri Azərbaycanla əməkdaşlığa böyük önəm verdiklərini, münasibətləri dərinləşdirməkdə maraqlı olduqlarını bəyan edirlər. Bu fikirlər ötən həftə Prezident İlham Əliyevin Belarus və Türkmənistana rəsmi səfərləri zamanı keçirdiyi görüşlərdə bir daha eşidildi.

Ümumiyyətlə, MDB dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığı gücləndirmək, keçmiş sovetlər birliyi dövründən mövcud olan çoxşaxəli əlaqələri müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirmək rəsmi Bakının xarici siyasətində vacib məsələlərdən biri kimi nəzərdən keçirilir. Ulu öndər Heydər Əliyevin xarici siyasətdə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edən Prezident İlham Əliyev ötən 15 ildə postsovet respublikaları ilə münasibətlərə xüsusi önəm verib. Dövlət başçısının MDB-nin iqtisadi potensialına görə seçilən respublikalarından sayılan Belarusa son rəsmi səfəri bu nöqteyi-nəzərdən diqqəti cəlb edir. Bu səfər ikitərəfli əlaqələrə əlavə impulslar vermək, genişmiqyaslı əməkdaşlıq üçün mövcud potensialdan hərtərəfli yararlanmaq baxımından vacib əhəmiyyət kəsb edirdi.

Amma ən əsası ondan ibarətdir ki, Azərbaycan-Belarus münasibətləri bu gün özünün ən yüksək zirvəsinə çataraq strateji tərəfdaşlıq mahiyyəti daşıyır. Bir-birindən kifayət qədər coğrafi uzaqlıqda, ayrı-ayrı mədəniyyətlərin daşıyıcıları olmalarına baxmayaraq Azərbaycan-Belarus bir-birlərinin etibarlı tərəfdaşı və yaxın dostlarıdır. Məlum olduğu kimi, Belarus Azərbaycanın üzv olmadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Lakin rəsmi Minsk tərəfdaşlığa sadiq qalaraq Azərbaycanın iştirak etmədiyi bu təşkilatda ölkəmizin mövqelərini qətiyyətlə müdafiə edib, KTMT-də, Avrasiya İttifaqı çərçivəsində Ermənistanın istədiyi addımı atmasına imkan verməyib. Minskdə keçirilən birgə mətbuat konfransında Prezident İlham Əliyev bu barədə deyib: “Əgər hər hansı beynəlxalq təşkilatda Belarusla, yaxud hər hansı rəhbər orqanlara namizədliyi irəli sürülən bu ölkədən namizədlə əlaqədar məsələ qaldırılırsa, Azərbaycan qeyd-şərtsiz dəstək göstərir. Eyni münasibəti biz Belarus tərəfdən də görürük. Bu, bizim münasibətlərimizin yüksək səviyyəsinin göstəricisidir. Biz, həmçinin ya Azərbaycanın, ya da Belarusun iştirak etmədiyi, amma başqa ölkənin iştirak etdiyi təşkilatlarda da bir-birimizi dəstəkləyirik və bu da təbiidir. Bu, bizim beynəlxalq siyasət, beynəlxalq münasibətlər, regional problemlər və beynəlxalq təhlükəsizliklə əlaqədar məsələləri müzakirə etdiyimiz kimi təbiidir. Bütün bunlar dostlar arasında təbiidir”.

Ardı 4-cü səh.

*Ravvin Abraham KUPER:*

## “İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün dini icmaların dinc və sərbəst fəaliyyəti üçün yüksək şərait yaradılıb”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuperi və yevangelist icmasının nümayəndəsi Conni Muru qəbul edib.



AZƏRTAC xəbər verir ki, Abraham Kuper hələ sovetlər dövründə Azərbaycanda olarkən xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən dini icmaların azad fəaliyyəti üçün şəraitin yaradıldığının şahidi olduğunu dedi. Ravvin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün dini icmaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dinc və sərbəst fəaliyyəti üçün yüksək şəraitin yaradıldığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda bütün xalqların və dini icmaların nümayəndələrinin tarixən dinc yanaşı yaşadığını qeyd edərək, bu ənənələrin çoxəsrlik tarixə malik olduğunu bildirdi və müstəqillik dövründə bu meylin uğurla davam etdirildiyini, multikulturalizmin dövlət siyasətinin prioritetlərindən biri olduğunu, milli və dini tolerantlığın yüksək dərəcədə təmin edildiyini vurğuladı. Dövlət başçısı bildirdi ki, bütün bunlar dövlətin həyata keçirdiyi siyasəti və xalqın iradəsini əks etdirir. Müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə bir ailə kimi dostluq şəraitində yaşadıqlarını vurğulayan Prezident İlham Əliyev onların Azərbaycanın ümumi inkişafına töhfə verdiklərini dedi. Dövlət başçısı ravvin Abraham Kuperin və yevangelist icmasının nümayəndəsi Conni Murun ölkəmizə səfərinin əməkdaşlığın və qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu.

## BTC-nin 4001 tankerlik yükü

### 3,1 milyard bareldən çox neft bu tankerlərlə dünya bazarlarına göndərilib




Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri 12 ildən çoxdur yayın qızmarının, qışın şaxtasının sınaqlarından layiqincə çıxır. Hazırda növbəti qışın astanasındayıq. Doğrudur, Azərbaycanda BTC əsasən düzənlik ərazilərdən keçir və bu yerlərə hələ qar yağmayıb, çöllər, yollar buz bağlamayıb.

Gürcüstanda və Türkiyədə isə kəmərin keçdiyi dağlıq ərazilərin çoxu artıq qar örtüyü altındadır. Xüsusilə Türkiyədə kəmərin ən yüksək nöqtəsi 2830 metr olan dağlardan keçdiyi yerlərdə. Lakin bütün bunların BTC-nin ahəngdar fəaliyyətinə heç bir maneçiliyi yoxdur.

BTC həmişə fasiləsiz və təhlükəsiz işləyir. Müasir dövrdə karbohidrogenlərin daşınmasının ən etibarlı vasitəsi boruları torpağın altından keçən boru kəmərləridir ki, BTC də məhz bunların sırasındadır. Onun boruları keyfiyyətlə istehsal olunub və etibarlı şəkildə örtüklənib. Kəmərin yerüstü obyektlərinin - 8 nasos və 98 siyirtmə stansiyasının işi də dəqiq təşkil olunub. Bu obyektləri yüksək keyfiyyətli qurğu və cihazlarla bacarıqlı və təcrübəli mütəxəssislər idarə edir. Bütün sistemin daim saz vəziyyətdə olması diqqət mərkəzindədir. BTC-nin operatoru olan BP şirkətinin verdiyi məlumata görə, bu ilin üç rübü ərzində kəmərin əməliyyat xərclərinə 87 milyon dollara qədər, əsaslı xərclərinə 21 milyon dollara yaxın vəsait sərf olunub.

Xatırladaq ki, 2005-ci ilin may ayında Bakıdakı Səngəçal terminalından BTC-yə vurulan Azərbaycan nefti Ceyhana bir il sonra çatmışdır. Kəmərin 600 min barel həcmində ilk yükü Ceyhan terminalında “British Hawtorn” tankerinə yüklənmiş və 2006-cı il iyunun 4-də dünya bazarına yola salınmışdır.

Ardı 5-ci səh.

## Bakı sərt qışa necə hazırlaşır

### Yolların buzdan və qardan vaxtında təmizlənməsi üçün Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən bütün zəruri texnika tam hazır vəziyyətə gətirilib

Qarşıdan soyuq, sərt qış gəlir. Paytaxtın küləkli və yağışlı-çiskinli havasında payız sərinliyindən daha çox qış sərtliyi hiss olunur. Etiraf etməliyik ki, əvvəllər hələ payızdan “Bakı qışa hazırdır” bəyan edilsə də, şəhərdə ciddi problemlər yaşanırdı.

Yağışlar və ilk qar yağan kimi enişli-yoxuşlu, sərt yolların, körpülərin buz bağlaması, həmçinin ortaya çıxan digər problemlər paytaxt sakinlərində narahatçılıq yaradırdı.

Bəs, görəsən, Bakı Şəhər İcra Hakimiyyəti builki qışa necə hazırlaşıb, qışa hazırlıqla bağlı hansı tədbirlər görülüb?

### Xüsusi qərargah yaradılıb

2018-2019-cu ilin payız-qız mövsümünə hazırlıqla bağlı şəhər icra hakimiyyətində müvafiq sərəncam imzalanıb, tədbirlər planı təsdiq olunub və xüsusi qərargah yaradılıb.

Bu barədə məlumat verən Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatı şəhər təsərrüfatı, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Ayaz Hüseynov bildirdi ki, paytaxtın bütün rayonlarında, idarə və müəssisələrdə, həmçinin şəhər icra hakimiyyəti tərkibində fəaliyyət göstərən departament və təşkilatlarda qış mövsümünə hazırlıqla bağlı tədbirlər planı hazırlanaraq qərargaha təqdim edilib. Paytaxt rayonlarına Bakı Şəhər İcra Hakimiyyətinin qış mövsümü ilə bağlı tövsiyələri paylanılıb.

Ardı 5-ci səh.





## *Vladimir SOLOVYOV:*

# “Hiss edirdim ki, Prezident İlham Əliyev gün ərzində mətbuatı şəxsən izləyir”

Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə görüşünün təəssüratları barədə danışıb.

AZƏRTAC xəbər verir ki, Vladimir Solovyov Prezident İlham Əliyevin Rusiya və Azərbaycan mətbuatında baş verənlərdən çox ətraflı məlumatlı olduğunu söyləyib. O, Prezident İlham Əliyevin söhbət zamanı dünyanın müxtəlif ölkələrindən, o cümlədən Rusiyadan bir çox jurnalistlərin soyadlarını çəkdiyini bildirərək deyib: “Hiss edirdim ki, Prezident gün ərzində mətbuatı şəxsən izləyir. İş burasındadır ki, Prezident İlham Əliyev Qərb mediasını ingilis, bizimkini rus, Türkiyə mətbuatını isə türk dilində izləyir. Məhz dil bilikləri sayəsində dövlət başçısının bu cür materialları izləməkdə problemi olmur”.

Rusiya Jurnalistlər İttifaqının sədri onu da əlavə edib ki, Azərbaycan və Rusiya prezidentlərinin xarakterində bir çox oxşar cəhətlər var. Onlar inanılmaz siyasi üfüqə sahibdirlər. Çətin ki, digər prezidentlər onlarla müqayisə olunsun.

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12, I kitab, maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851) aşağıdakı dəyişikliklər edilsin:

1. 47.1-ci maddənin ikinci cümləsində “Bir” sözü “Banklar haqqında” və “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, bir” sözləri ilə əvəz edilsin.

2. 49.1-ci maddənin ikinci cümləsində “nizamnamə ilə” sözləri “, müvafiq olaraq, nizamnamə, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” və “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının qanunları ilə” sözləri ilə əvəz edilsin.

3. 49-1-ci maddə üzrə:

3.1. 49-1.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 49-1.1.9-cu maddə əlavə edilsin:

“49-1.1.9. “Banklar haqqında” və “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş, müvafiq olaraq, banklara və investisiya fondlarına aidiyyəti olan digər şəxslər.”;

3.2. 49-1.3-cü maddənin birinci cümləsində “və ya” sözlərindən sonra “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla,” sözləri əlavə edilsin;

3.3. 49-1.6-cı maddədə “və ya” sözlərindən sonra “digər” sözü əlavə edilsin.

4. Aşağıdakı məzmunda 55.6-cı maddə əlavə edilsin:

“55.6. Bankların yenidən təşkili “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.”.

5. 59-cu maddə üzrə:

5.1. 59.2.3-cü maddədə “Məcəllədə” sözündən sonra “, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunlarında” sözləri əlavə edilsin;

5.2. 59.3-cü maddənin birinci cümləsində “orqanı” sözündən sonra “(qurumu)” sözü əlavə edilsin;

5.3. aşağıdakı məzmunda 59.8-ci maddə əlavə edilsin:

“59.8. Yerli bankların, onların filial, şöbə və nümayəndəliklərinin, habelə xarici bankların yerli filial və nümayəndəliklərinin ləğvi “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.”.

6. 60-cı və 61-ci maddələrin mətnində ismin müvafiq hallarında “təsviyəçi” sözündən sonra ismin müvafiq hallarında “, ləğvedici” sözü əlavə edilsin.

7. 63.2-ci maddədə “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi” sözləri “, müvafiq olaraq, “Müflisləşmə və iflas haqqında” və “Banklar haqqında” Azərbaycan Respublikasının qanunları” sözləri ilə əvəz edilsin.

8. 91.1-ci maddənin dördüncü cümləsində “və (və ya)” sözləri “və ya” sözləri ilə əvəz edilsin.

9. 98-ci maddə üzrə:

9.1. 98.3-cü maddədə “bu məcəllədə” sözləri “ müvafiq olaraq, bu məcəllədə, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İnvestisiya fondları haqqında” və “Kredit ittifaqları haqqında” Azərbaycan Respublikasının qanunlarında” sözləri ilə əvəz edilsin;

9.2. 98.7-ci maddədə “bu məcəlləyə” sözləri “, müvafiq olaraq, bu məcəlləyə, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunlarına” sözləri ilə əvəz edilsin;

9.3. 98.11.3-cü maddədə “bu məcəllə” sözləri “müvafiq olaraq, bu məcəllə, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunları” sözləri ilə əvəz edilsin;

9.4. 98.13-cü maddədə “bu məcəllə və “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanunu” sözləri “, müvafiq olaraq, bu məcəllə, “Banklar haqqında”, “İnvestisiya fondları haqqında” və “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının qanunları” sözləri ilə əvəz edilsin;

9.5. aşağıdakı məzmunda 98.15-ci maddə əlavə edilsin:

“98.15. Bu məcəllənin 98.4-cü, 98.5-ci və 98.11.1-ci maddələrində qeyd edilmiş məsələlərlə əlaqədar banklara, sığortaçılara və qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərə münasibətdə “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının qanunlarının müddəaları tətbiq edilir.”.

10. 99.3-cü maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Bu maddənin tələbləri banklara və xarici bankların yerli filiallarına şamil edilmir.”.

11. 102.5-ci maddədə “Cəmiyyətin” sözü “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, cəmiyyətin” sözləri ilə əvəz edilsin.

12. 103-cü maddə üzrə:

12.1. 103.1-ci maddənin ikinci cümləsində “bu məcəllə” sözləri “, müvafiq olaraq, bu məcəllə, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının qanunları” sözləri ilə əvəz edilsin;

12.2. 103.2-ci maddənin ikinci cümləsində “orqanı” sözündən sonra “və maliyyə bazarlarına nəzarət orqanı” sözləri əlavə edilsin;

12.3. 103.5-ci maddənin ikinci cümləsində “Əgər” sözü “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “Kredit ittifaqları haqqında”, “Poçt haqqında” və “Kredit büroları haqqında” Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, əgər” sözləri ilə əvəz edilsin.

13. 105.4-cü maddədə “Səhmdar” sözü “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “Kredit ittifaqları haqqında”, “Poçt haqqında” və “Kredit büroları haqqında” Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdar” sözləri ilə əvəz edilsin.

14. 107-ci maddə üzrə:

14.1. 107.4-cü maddənin birinci cümləsində “və (və ya)” sözləri “və ya” sözləri ilə əvəz edilsin;

14.2. 107.4-cü maddənin dördüncü cümləsində “Səhmdarların” sözü “Banklar haqqında” və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların” sözləri ilə əvəz edilsin;

14.3. 107.5-ci maddəsində “bu məcəlləyə” sözləri “, müvafiq olaraq, bu məcəlləyə, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunlarına” sözləri ilə əvəz edilsin.

15. 107-1.3-cü və 107-1.6-cı maddələrin birinci cümlələrində “Səhmdarların” sözü “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların” sözləri ilə əvəz edilsin.

16. 107-2-ci maddə üzrə:

16.1. 107-2.1-ci maddəyə “altmış” sözündən əvvəl “ən azı” sözləri əlavə edilsin;

16.2. 107-2.2-ci maddənin üçüncü cümləsində “Yenidən” sözü “Banklar haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, yenidən” sözləri ilə əvəz edilsin;

16.3. 107-2.3-cü maddənin ikinci cümləsində “Təkrarən” sözü “Banklar haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, təkrarən” sözləri ilə əvəz edilsin.

17. 107-10-cu maddə üzrə:

17.1. 107-10.2-ci maddədə “bu məcəllə ilə” sözləri “, müvafiq olaraq, bu məcəllə, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunları” sözləri ilə əvəz edilsin;

17.2. 107-10.3-cü maddədə “cəmiyyətin nizamnaməsi ilə” sözləri “, müvafiq olaraq, cəmiyyətin nizamnaməsi, “Banklar haqqında” və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunları ilə” sözləri ilə əvəz edilsin;

17.3. 107-10.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“107-10.5. Cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə bu məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması, müvafiq olaraq, bu məcəllə, “Banklar haqqında” və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər.”.

18. Aşağıdakı məzmunda 107-11.7-ci maddə əlavə edilsin:

“107-11.7. Bu maddənin tələbləri banklara və xarici bankların yerli filiallarına şamil edilmir.”.

19. 108-ci maddə üzrə:

19.1. 108.1-ci maddənin ikinci cümləsində “bu məcəllə” sözləri “, müvafiq olaraq, bu məcəllə, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunları” sözləri ilə əvəz edilsin;

19.2. 108.2-ci maddədə “Səhmdar” sözü “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında” və “Kredit büroları haqqında” Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdar” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# H.F.Hacıyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Hikmət Fərhad oğlu Hacıyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri təyin edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin əməkdaşlarına “Əməkdar müəllim” fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin 90 illik yubileyi münasibətilə və Azərbaycanda musiqi təhsilinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə “Əməkdar müəllim” fəxri adı verilsin:

Kraynova Valentina Serqeyevna
Manafova Ülviyyə Azər qızı
Səttarova Səadət Qüdrət qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1295-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1295-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. 2020-ci il yanvar ayının 1-dək Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanına qüvvəyə mindikləri gündən edilmiş bütün əlavə və dəyişikliklər nəzərə alınmaqla həmin məcəllənin və fərmanın yeni redaksiyasını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış saziş təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli və “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2007-ci il 28 dekabr tarixli 695 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 598; 2004, № 2, maddə 71, № 12, maddələr 994, 1005; 2005, № 10, maddə 910; 2008, № 11, maddə 970; 2009, № 7, maddə 521, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 130, № 9, maddə 980; 2016, № 10, maddə 1630; 2017, № 3, maddələr 353, 355; 2018, № 4, maddə 689, № 7 (I kitab), maddə 1503) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”nin 11.22-ci bəndində “məhdudlaşdırılması və ya bu fəaliyyətə xitam verilməsi haqqında vəsatət qaldırmaq” sözləri “dayandırılması və ya qadağan edilməsi barədə qərar qəbul etmək” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245; 2008, № 10, maddə 898; 2009, № 4, maddə 219, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 3, maddə 458; 2017, № 3, maddə 360) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə”nin 8.24-cü bəndində “səlahiyyətləri daxilində təhlükəli təsərrüfat fəaliyyəti növləri üzrə” sözləri “fəaliyyət istiqamətlərinə uyğun olaraq” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# İstanbulda “Hər kəs üçün davamlı inkişaf və sülh” devizi ilə 9-cu Boğaziçi Sammiti keçirilir

*Sammitin rəsmi açılışında Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov iştirak edib*





Noyabrın 26-da İstanbulda “Hər kəs üçün davamlı inkişaf və sülh” devizi ilə keçirilən 9-cu Boğaziçi Sammitinin rəsmi açılışı olub.

AZƏRTAC xəbər verir ki, sammit Türkiyə Prezidentinin himayəsi altında fəaliyyət göstərən Beynəlxalq Əməkdaşlıq Platforması tərəfindən 2011-ci ildən etibarən hər il İstanbulda təşkil olunur. Tədbirdə yüzdən artıq ölkədən dəvət olunmuş dövlət və hökumət başçıları, rəsmi şəxslər, qeyri-hökumət təşkilatlarının, analitik mərkəzlərin və qlobal şirkətlərin rəhbərləri iştirak edirlər.

Beynəlxalq tədbir dünyanın müxtəlif ölkələri arasında iqtisadi, siyasi, diplomatik və enerji sahəsində əlaqələrin daha da dərinləşməsi, dövlətlər arasında müasir dövrün tələblərinə uyğun əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi, bəşəriyyəti narahat edən məsələlərin həlli üçün birgə fəaliyyət mexanizmlərinin hazırlanması və digər bu kimi mühüm mövzuların müzakirə edildiyi platforma hesab olunur.

Builki sammitin açılışında Makedoniya Prezidenti George İvanov, Şimali Kipr Türk Respublikasının Prezidenti Mustafa Akıncı, habelə Küveyt, İordaniya, Polşa, Rusiya, Qətər, Malayziya və dünyanın bir çox ölkəsindən rəsmi şəxslər, həmçinin keçmiş dövlət və hökumət rəhbərləri də iştirak ediblər.

Sammitdə Azərbaycanı təmsil edən Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli HƏSƏNOV çıxış edərək çox mühüm beynəlxalq əhəmiyyət daşıyan belə bir tədbirin təşkilinə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və Türkiyə dövlətinə təşəkkürünü bildirib.

Çıxışında dövrümüzün acı reallıqlarından bəhs edən Prezidentin köməkçisi bildirib ki, bəzi dövlətlər əməkdaşlıq şəraitində davamlı inkişafa nail olmaq yolunu deyil, əksinə, qəsb, işğal, silahlanma yolunu seçiblər. Bu cür antihumanist siyasət hazırda Mərkəzi və Şimali Amerika sərhədlərindən Suriya və Türkiyə, Myanma və Banqladeş sərhədlərinədək bütün dünyanın geosiyasi məhvərindən keçir. Belə bir fəlakət artıq 30 ilə yaxındır ki, Cənubi Qafqazda da yaşanmaqdadır. Müstəqilliyimizin ilk illərində qonşu Ermənistanın yürütdüyü təcavüzkar siyasət, Azərbaycana qarşı heç bir tarixi və hüquqi əsası olmayan ərazi iddiaları bir milyondan çox vətəndaşımızın qaçqın və köçkünə çevrilməsinə, ərazimizin 20 faizinin işğalına səbəb olub. Həmin torpaqlarda qədim dini və tarixi abidələrin vəhşicəsinə darmadağın edilməsi ATƏT-in faktaraşdırıcı missiyası tərəfindən də təsdiq edilib. Dünyanın 10-dan çox ölkəsi və çoxsaylı beynəlxalq qurumlar azərbaycanlılara qarşı törədilmiş Xocalı soyqırımını tanıyıblar.

Əli Həsənov diqqətə çatdırıb ki, Dağlıq Qarabağ münaqişəsi bu gün yalnız Cənubi Qafqazdakı kövrək sülhü deyil, bütün Avropanın və dünyanın təhlükəsizliyini təhdid edir. Bunun kökündə beynəlxalq hüquqa, digər ölkələrin ərazi bütövlüyünə, səmavi dinlərin sülh çağırışlarına məhəl qoymamaq, böyüklük maniyası, dənizdən-dənizə ərazilərə sahiblənmək iddiası, bu iddianı reallaşdırmaq naminə hər cür saxtakarlığa və bəşəri cinayətə yol vermək amili durur.

“İşğal faktına baxmayaraq, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan nəinki öz dinamik inkişafını təmin edə bilib, həm də Avropanın və Yaxın Şərqin iqtisadi və mədəni inteqrasiyasında, Avropanın enerji təhlükəsizliyinin təminatında xüsusi rol oynayan ölkəyə çevrilib”, - deyən Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan dövlətinin öz tərəfdaşları ilə həyata keçirdiyi qlobal layihələr təkcə enerji təhlükəsizliyi və kommunikasiya layihələri deyil, onlar təhlükəsizliyin təmin edilməsinə böyük töhfə verir, qitələri bir-birinə birləşdirir, dünyanın geoiqtisadi xəritəsinin yenidən çəkilməsini şərtləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın təşəbbüsçüsü olduğu layihələrdən bütün iştirakçı dövlətlər, xüsusən qonşu ölkələr də faydalanmaqdadırlar. Elə bu yaxınlarda istifadəyə verilmiş “STAR Refinery” zavodunun həm Türkiyə, həm Azərbaycan üçün gətirəcəyi faydanı xatırlamaq kifayətdir. Lakin orta əsr qəsbkarları kimi daha asan yolla, özgə torpaqlarını işğal etməklə varlanmaq istəyən cinayətkar Ermənistan rejimi bu gün regional təşəbbüslərdən təcrid olunub. Bu, belə də olmalıdır. İşğal yolu tutan hərbi xunta öz xalqına səadət deyil, yalnız fəlakət gətirə bilər ki, bu da Ermənistanın timsalında öz təsdiqini bir daha tapır.

Azərbaycanın bölgədəki sülhyaratma əməliyyatlarında fəallığı ilə seçildiyini vurğulayan Əli Həsənov qeyd edib ki, ölkəmiz NATO-nun, Avropa İttifaqının, ATƏT-in, MDB-nin əməkdaşlıq proqramlarının fəal iştirakçısıdır. Azərbaycan işğalçı Ermənistan istisna olunmaqla, bütün qonşularla ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatlarında işbirliyini inkişaf etdirir. Əlbəttə, ərazi bütövlüyümüzə hərbi təcavüz olmasaydı və ölkəmizin maddi, insani resursları işğalın aradan qaldırılmasına yönəldilməsəydi, indi həm Azərbaycanın, həm də bölgənin inkişafı başqa bir səviyyədə olardı.

“Biz elə bir bölgə, elə bir dünya arzusundayıq ki, eyni coğrafiyanı, eyni və ya yaxın mədəniyyətləri bölüşən insanlar mühacirət yolu seçməyə məhkum olmasınlar, öz tarixi torpaqlarında qalsınlar, yaşayıb inkişaf etsinlər”, - deyən Prezidentin köməkçisi bildirib ki, bunun üçün hər kəs özündə təcavüzkara “dur” demək cəsarəti tapmalı, bu istiqamətdə irəli sürülən bütün təşəbbüslər dəstəklənməli, səylər birləşdirilməlidir. Bu baxımdan 9 ildir Boğaziçi Zirvəsi hər kəs üçün davamlı inkişafa, sülh axtarışlarına öz töhfəsini verir. Türkiyənin münaqişələrin həllində, bölgədə davamlı sülhün bərpasında çox böyük zəhməti var. Prezident Rəcəb Tayyib Ərdoğanın başçılığı ilə dünyanın mühüm geosiyasi aktoruna çevrilmiş Türkiyə dövlətinin yürütdüyü siyasət, keçirdiyi sülhyaratma əməliyyatları, apardığı gərgin diplomatik mübarizə bölgədəki münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin ədalətli həllinə yönəlmiş böyük fəaliyyətdir. Bu işdə qardaş Türkiyəyə uğurlar arzu edirik.

Sonra çıxış edən Makedoniyanın Prezidenti George İVANOV və Polşa hökumətinin keçmiş üzvü Jacek ROSTOVSKİ İkinci Dünya müharibəsindən ötən dövrdə Avropada yaşanan siyasi-iqtisadi problemlərdən bəhs ediblər. Diqqətə çatdırılıb ki, dünyadakı bütün münaqişə və qarşıdurmalar bu və ya digər formada Avropa ölkələrinə mənfi təsir göstərir. Dünyada sülh və inkişafa nail olmaq üçün bu problemlərdən yaxa qurtarmaq vacibdir.

Türkiyənin Avropa İttifaqı məsələləri üzrə sabiq naziri Egemen BAXIŞ qeyd edib ki, mövcud münaqişələr, dövlətlərin ərazi bütövlüyünə qəsd müasir dünyanın başlıca humanitar problemləridir. Çünki bu problemlərdən ən çox əziyyət çəkən dinc insanlardır. Mövcud münaqişələrin həll olunmaması sülh ümidlərinə zərbə vurur.

Yaxın Şərq probleminin olduqca təhlükəli mərhələyə çatdığını vurğulayan İordaniya Senatının sədri Faisal əl-FAYEZ qeyd edib ki, İordaniya sülh və inkişaf tərəfdarıdır. O bildirib ki, Suriyada vətəndaş müharibəsi bölgə ölkələri arasında ticarət əlaqələrinə zərbə vurub. Bölgədəki humanitar böhran tezliklə həllini tapmazsa, münaqişə yalnız qonşuların ərazisinə yox, uzaq ölkələrə də sıçraya bilər.

Rusiya-Türkiyə iqtisadi əlaqələrinin bölgənin inkişafına töhfəsindən danışan Rusiya Federasiyasının Çeçenistan Respublikasının Baş naziri Muslim HUÇİEV ölkəsinin iqtisadi potensialı və sərmayə mühiti barədə geniş məlumat verib. Baş nazir əminliklə bildirib ki, Çeçenistana sərmayə yatırmaq istəyən türkiyəli iş adamları bunun yaxşı bəhrəsini görə bilərlər.

Türkiyədə istehsal və tədarük olunan məhsulların xarici bazarlarda sürətlə artdığını diqqətə çatdıran Türkiyə İxracatçılar Məclisinin sədri İsmayıl GÜLLƏ bildirib ki, ixracatçılar üçün qısa və təhlükəsiz yol axtarışı müasir dünya iqtisadiyyatında ən mühüm məsələdir. Bu mənada Bakı-Tbilisi-Qars dəmir yolu xətti və İstanbul Hava Limanı Avrasiya məkanında iqtisadi münasibətlər üçün yeni üfüqlər açır. Lakin bundan da irəlidə olan sülh və sabitliyin mövcudluğudur.

Bütün qonaqlara Boğaziçi Sammitində iştiraka görə təşəkkürünü ifadə edən Beynəlxalq Əməkdaşlıq Platformasının qurucusu Cengiz Özgengcil əmin olduğunu bildirib ki, müzakirə edilən məsələlər sülhsevər dünya ictimaiyyəti tərəfindən maraqla qarşılanacaq.

Çıxışçılar sülh, sabitlik və inkişafın yollarına dair fikir və mülahizələrini bölüşüblər. Diqqətə çatdırılıb ki, müasir dünyada qlobal iqtisadiyyatın başlıca problemi münaqişə və qarşıdurmalardır. Qeyd olunub ki, münaqişə və qarşıdurmalar cəmiyyətlərin inkişafında ən pozucu amildir. Davamlı sülhə nail olmaq üçün istənilən zəmində əsassız iddialardan əl çəkmək lazımdır.

Sammit işini noyabrın 28-dək “Hər kəs üçün inkişafa beynəlxalq təhdid: Ticarət müharibələri”, “Yeni istiqamətlər axtaran dünyada dayanıqlı gələcəyin şifrələri”, “Dünyanın idarə olunmasında dəyişiklik ehtiyacı”, “Sülh üçün müdafiə və təhlükəsizlik”, “Gələcəyin texnologiyalarına doğru”, “İqtisadi inkişafın təşkilində medianın rolu” və digər mövzularda “dəyirmi masa”lar və panellərlə davam etdirəcək.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov sammit çərçivəsində Azərbaycanın və xarici ölkələrin KİV-lərinə müsahibə verib.

# Astanada Qazaxıstanın Birinci Prezident Günü münasibətilə beynəlxalq parlament konfransı keçirilib



Astana şəhərində Qazaxıstanın Birinci Prezident Günü münasibətilə beynəlxalq parlament konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, “Astana - qlobal inteqrasiya, təhlükəsizlik və sülh mərkəzi” mövzusunda keçirilən beynəlxalq parlament konfransı ölkə parlamentinin təklifi və Xarici İşlər Nazirliyinin dəstəyi ilə təşkil olunub.

Tədbirdə Azərbaycanı Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov təmsil edib. Konfransda İtaliya, Qırğızıstan, Litva, Rusiya, Türkiyə, Özbəkistan parlamentlərinin rəhbərlikləri ilə yanaşı, Qazaxıstan Parlamenti Məclisinin deputatları iştirak ediblər.

Konfransı açan Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin Mərkəzi Asiya dövlətləri arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, regional təhlükəsizliyin təmin edilməsi istiqamətindəki fəaliyyəti, Qazaxıstanın BMT Təhlükəsizlik Şurasına sədrliyinin prioritetlərinin reallaşdırılması kimi beynəlxalq təşəbbüslər, həmçinin ölkədə həyata keçirilən siyasi, iqtisadi islahatlar barədə məlumat verib.

Qazaxıstanın xarici işlər naziri Kayrat Abduraxmanov konfransda çıxış edərək deyib ki, Qazaxıstan bu gün dünyada etibarlı tərəfdaş, sabit inkişaf edən ölkə kimi tanınır. Qazaxıstan regionda sabitliyin, təhlükəsizliyin, Avrasiya regionunda geniş inteqrasiyanın tərəfdarıdır. Qazaxıstan bütün qonşu ölkələrlə dostluq əlaqələrinə malikdir.

Birinci Prezident Günü münasibətilə təbriklərini çatdıran Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov regionda və dünyada sabitliyin, təhlükəsizliyin təmini, terrorizmə qarşı mübarizə, nüvə silahının yayılmasının qarşısının alınması ilə bağlı məsələlərin müzakirəsinin əhəmiyyətini vurğulayıb. Milli Məclis Sədrinin birinci müavini Qazaxıstanın Nursultan Nazarbayevin rəhbərliyi ilə regionda sülhün, təhlükəsizliyin, sabitliyin bərqərar olması üçün mühüm addımlar atdığını vurğulayıb.

Azərbaycan-Qazaxıstan ikitərəfli münasibətlərinin möhkəm təməlinin olduğunu söyləyən Ziyafət Əsgərov ölkələrimiz arasında əlaqələrin daha da inkişafı üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb. “Xalqlarımız arasında qədim və tarixi əlaqələr mövcuddur. Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin əsası ümummilli lider Heydər Əliyev və Prezident Nursultan Nazarbayev tərəfindən qoyulub. Bu əlaqələr bu gün sürətlə inkişaf edir”, - deyə Milli Məclis Sədrinin birinci müavini vurğulayıb.

Azərbaycanın və Qazaxıstanın beynəlxalq və regional təşkilatlarda mövqelərinin üst-üstə düşdüyünü qeyd edən Ziyafət Əsgərov bildirib ki, Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyanın qəbul olunması münasibətlərimizin daha da inkişafı üçün geniş perspektivlər açır.

Türkiyə Böyük Millət Məclisi Sədrinin müavini Mustafa Şentop, Rusiya Dövlət Duması sədrinin müavini Sergey Neverov, Özbəkistan parlamentinin Sədri Nurdincan İsmoilov, İtaliya parlamenti Deputatlar Palatasının vitse-prezidenti Rozato Ettore və başqaları çıxış edərək konfransın əhəmiyyətindən, Qazaxıstanın son illər əldə etdiyi uğurlardan bəhs ediblər.

Konfrans “Astana vektoru, təhlükəsizlik və əməkdaşlıq” və “Qazaxıstanın qlobal təklifləri: sülh və həmrəylik ideyalarının təbliği” mövzularında panel sessiyalarla işini davam etdirir.

Konfrans çərçivəsində Ziyafət Əsgərov Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulinlə görüşüb.

Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında siyasi, iqtisadi, ticari münasibətlər, həmçinin parlamentlərarası əlaqələr müzakirə edilib. Söhbət zamanı ikitərəfli əlaqələrin daha da genişləndirilməsində parlamentlərin xüsusi rolu qeyd edilib.

# Azərbaycan-Avropa İttifaqı əlaqələri müzakirə olunub

Noyabrın 26-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Terrorizm üzrə Xüsusi Komitəsinin sədr müavini Ceffri Van Ordenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Avropa İttifaqı ölkələri ilə çox yaxşı əməkdaşlıq əlaqələrinə malik olduğunu deyən Səməd Seyidov ölkəmizdə Avropa Parlamenti ilə əlaqələrə önəm verildiyini bildirib. Komitə sədri qeyd edib ki, Azərbaycan Avropanın tərəfdaşı olmaqla yanaşı, qitənin problemlərinin həllinə kömək göstərməyə qadir ölkədir. “Azərbaycan hazırda Avropa İttifaqının Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Qarşılıqlı hörmət və ortaq maraqlar tərəfdaşlığımızın strateji bünövrəsini formalaşdırır. Ölkəmiz Avropa ölkələri, o cümlədən Böyük Britaniya ilə yaxşı əlaqələrə malikdir”,- deyə Səməd Seyidov vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Səməd Seyidov diqqətə çatdırıb ki, Ermənistanın yürütdüyü işğalçılıq siyasəti Cənubi Qafqaz bölgəsində sabitliyə və təhlükəsizliyə ciddi təhdiddir.

Sonra görüşdə deputat Asim Mollazadə fikirlərini bölüşərək hazırda dünya siyasətində baş verən hadisələrə, münaqişə bölgələrindəki vəziyyətə toxunub. Bildirib ki, Azərbaycan regionda təhlükəsizliyin qorunmasına və Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verir.

Söhbət zamanı Avropa Parlamentinin Terrorizm üzrə Xüsusi Komitəsinin sədr müavini Ceffri Van Ordeni maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan Avropa hüquq sisteminin ayrılmaz bir hissəsinə çevrilib

Noyabrın 26-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Terrorizm üzrə Xüsusi Komitəsinin sədr müavini Ceffri Van Orden ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə komitə sədri Əli Hüseynli Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yüksək sürətlə inkişaf etdiyini bildirib. Qeyd edib ki, Azərbaycan Avropa İttifaqı və quruma üzv ölkələrlə əlaqələrə xüsusi önəm verir.

Azərbaycanın Avropa hüquq sisteminin ayrılmaz bir hissəsinə çevrildiyini qeyd edən komitə sədri son illər ölkəmizin qazandığı nailiyyətlər barədə məlumat verib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Əli Hüseynli qeyd edib ki, Azərbaycan torpaqlarının işğalı nəticəsində 1 milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib. Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul olunub. “Lakin təəssüflər olsun ki, bu sənədlər hələ də icra olunmur. Bu məsələyə Avropa İttifaqı və digər beynəlxalq qurumlar səssiz qalmamalıdır”,- deyə komitə sədri vurğulayıb.

Avropa Parlamentinin Terrorizm üzrə Xüsusi Komitəsinin sədr müavini Ceffri Van Orden səfərinin məqsədlərindən danışaraq deyib: “Azərbaycana ilk səfərim olmasına baxmayaraq, ölkə ilə bağlı kifayət qədər məlumatlıyam. Regionun istər geosiyasi, istərsə də iqtisadi durumundan xəbərdaram. Bu səfər zamanı əsas məqsəd regiondakı vəziyyətlə bağlı daha dolğun məlumat əldə etməkdir”.

Söhbət zamanı terrorizmlə və onun maliyyələşdirilməsi ilə mübarizə məsələləri, ekstremizm, irqçilik, ksenofobiya ilə mübarizə məqsədilə mədəniyyətlərarası və dinlərarası dialoqun vacibliyi, terrorizmi yaradan səbəblərin aradan qaldırılmasının həlli yolları və s. kimi məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# *Ceffri Van ORDEN:* “Avropa İttifaqı Azərbaycan ilə əməkdaşlığa böyük önəm verir”

Noyabrın 26-da Milli Məclisin deputatı, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Terrorizm üzrə Xüsusi Komitəsinin sədr müavini Ceffri Van Orden ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında genişlənən əlaqələrdə parlamentlərarası əməkdaşlığın rolu xüsusi vurğulanıb.

Cavanşir Feyziyev bildirib ki, son illər ərzində Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər yüksələn xətlə inkişaf edir, əlaqələrin genişləndirilməsində parlamentlərarası əməkdaşlığın xüsusi rolu var. Azərbaycan ilə Avropa İttifaqına üzv ölkələr arasında da yaxşı əlaqələrin olduğunu söyləyən C.Feyziyev diqqətə çatdırıb ki, Azərbaycan Avropa İttifaqının ən böyük ticarət tərəfdaşlarından biridir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verən deputat problemin ancaq beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinin mümkün olduğunu diqqətə çatdırıb.

Azərbaycana ilk dəfə səfər etdiyini bildirən Avropa Parlamentinin Terrorizm üzrə xüsusi komitəsinin sədr müavini Ceffri Van Orden ölkəmizdə şahidi olduğu inkişafın onda xoş təəssürat yaratdığını vurğulayıb. “Azərbaycanda gedən inkişaf insanların rifah halının yaxşı olmasından xəbər verir. Azərbaycan həm geosiyasi mövqeyinə görə, həm də iqtisadi inkişaf səviyyəsinə görə mühüm ölkədir”, - deyə Ceffri Van Orden vurğulayıb.

Ceffri Van Orden qeyd edib ki, Avropa İttifaqı Azərbaycan ilə əməkdaşlığa böyük önəm verir. O, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin qarşılıqlı maraq əsasında uğurla inkişaf etdiyini deyib. Zəngin təbii ehtiyatlara malik Azərbaycanın təşəbbüsü ilə reallaşan qlobal layihələr ölkənin tərəqqisini daha da sürətləndirir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin deputatları Sahibə Qafarova, Tahir Mirkişili və digər rəsmi şəxslər iştirak ediblər.

# *Abraham KUPER:* “Azərbaycan tolerantlıq ənənələri və dinlərarası dialoqla bağlı nümunəvi modelə malikdir”

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı noyabrın 26-da ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuper və yevangelist icmasının nümayəndəsi Conni Mur ilə görüşüb.

Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkəmizdəki nümunəvi dövlət-din münasibətlərindən, tolerantlıq siyasətindən bəhs edən komitə sədri Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasındakı tolerant münasibətin qarşılıqlı hörmətə və əməkdaşlığa, bir-birini dəstəkləmək prinsipinə əsaslandığını bildirib. O, Azərbaycan xalqının dözümlülük keyfiyyətinin, ölkədə hökm sürən tolerantlıq mühitinin qorunub-saxlanılması istiqamətində ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. Dövlətin qarşısına qoyduğu məqsədlərdən birinin bu mühiti qoruyub-saxlamaq və təşviq etmək olduğunu deyən Mübariz Qurbanlı ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsinin Azərbaycanı dünyada multikulturalizmin mərkəzlərindən birinə çevirdiyini vurğulayıb.

Bu gün Azərbaycanda yalnız kilsə və sinaqoqların deyil, eyni zamanda, bir çox xristian, yəhudi dini tədris müəssisələrinin sərbəst fəaliyyət göstərdiyini bildirən Mübariz Qurbanlı yəhudi icmalarının Azərbaycandakı fəaliyyətindən danışıb. Dövlət komitəsinin sədri ölkəmizdə 21-i xristian, 8-i yəhudi, 1-i krişna və 2-si bəhai olmaqla 32 qeyri-müsəlman dini icmasının dövlət qeydiyyatına alındığını və bu icmaların Azərbaycanın ictimai-siyasi həyatında yaxından və fəal iştirak etdiyini xüsusi olaraq bildirib.

Abraham Kuper dinlərə münasibətdə tolerantlığı, sünni və şiələr arasındakı vəhdəti ilə seçilən Azərbaycanın bu spesifik xüsusiyyətlərinə görə bütün dünyada fərqləndiyini vurğulayıb. Azərbaycanın tolerantlıq ənənələri və dinlərarası dialoqla bağlı nümunəvi modelə malik olduğunu diqqətə çatdıran qonaq yəhudi icmalarına göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib. O, 7 sinaqoqun fəaliyyət göstərməsini, icmalara mütəmadi maddi vəsaitlərin ayrılmasını ölkəmizdəki tolerant mühitin, dinə dövlət qayğısının bariz nümunəsi adlandırıb.

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən yevangelist icmasının nümayəndəsi Conni Mur Bakının çox gözəl şəhər olduğunu bildirib. C.Mur Azərbaycanın dünyaya birgəyaşayış nümunəsi nümayiş etdirdiyini və bu modelin kökündə dini azadlıqların təmin edilməsinin dayandığını vurğulayıb.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşün sonunda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim edilib.

Qeyd edək ki, görüşdə Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev də iştirak edib.

# Azərbaycan etibarlı tərəfdaşdır





*Əvvəli 1-ci səh.*

Belarus ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlığın bariz nümunəsidir. Həqiqətən də iki ölkə arasında əlaqələrin dinamikasına nəzər saldıqda aydın olur ki, müxtəlif sahələri əhatə edən Belarus-Azərbaycan münasibətləri qarşılıqlı faydalı əməkdaşlığa və strateji tərəfdaşlığa əsaslanır, uğurla inkişaf edir. Səfər zamanı dövlət başçılarının iştirakı ilə 9 sənəd imzalandı. Bu sənədlər Azərbaycan ilə Belarus arasında iqtisadiyyat, ticarət, nəqliyyat, energetika, hüquq-mühafizə, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Ən vacib sənəd isə dövlət başçıları tərəfindən imzalanmış birgə bəyanatdır. Bəyanatın 6-cı maddəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar məqamlar öz əksini tapıb. Bu, bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyət, o cümlədən Belarus Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyir.

Azərbaycan-Belarus əlaqələrinin bu səviyyəyə çatmasında dövlət başçılarının şəxsi dostluq münasibətləri əvəzsiz rol oynayır. İndiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarusa beş dəfə, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko isə Azərbaycana dörd dəfə rəsmi səfər edib. Bundan başqa dövlət başçıları işgüzar səfərlərlər də ediblər. Bu cür çoxsaylı qarşılıqlı səfərlər prezidentlər arasında olan səmimi dostluğun və Belarus-Azərbaycan əməkdaşlığının məzmun və mahiyyətinin və strateji xarakter daşımasının təsdiqidir.

### Regional əməkdaşlığa xidmət edən razılaşmalar

Prezident İlham Əliyevin Türkmənistana rəsmi səfəri isə göstərdi ki, iki ölkənin münasibətlərində yeni mərhələ başlayır. Xatırladaq ki, hələ 2017-ci ildə "Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji Tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb. Bu mənada Aşqabadda aparılan danışıqlar əlaqələrin strateji tərəfdaşlıq müstəvisində inkişafını xarakterizə edir.

Bu səfər isə Türkmənistan tərəfinin xahişi ilə baş tutub. Səfərdən öncə Türkmənistan baş nazirinin müavini və xarici işlər naziri Azərbaycana səfər etmişdilər.

Səfər zamanı prezidentlər arasında istər təkbətək, istər geniştərkibli görüşdə olduqca konstruktiv və səmərəli danışıqlar aparıldı. Dövlət başçıları ikitərəfli əlaqələrin, ayrı-ayrı sahələr üzrə əməkdaşlığın bütün aspektlərini, yəni, onların cari və perspektiv vəziyyətini, o cümlədən regional təhlükəsizlik və beynəlxalq münasibətlərə dair məsələləri nəzərdən keçirdilər. Görünən odur ki, həm Azərbaycan, həm də Türkmənistan ikitərəfli münasibətlərin daha da inkişafında maraqlıdır.

Danışıqların yekunu olaraq iki ölkə arasında 21 sənəd imzalandı. Bu sənədlər iki qonşu dövlət arasında müxtəlif sahələrdə əməkdaşlığın mövcud hüquqi bazasını daha da möhkəmləndirəcək. Eyni zamanda çoxsaylı sənədlərin imzalanması ikitərəfli münasibətlərin, əməkdaşlıq həcminin və qardaşlıq münasibətinin göstəricisidir. Yalnız yaxın ölkə ilə siyasi və iqtisadi fəaliyyətin bu cür müxtəlif istiqamətləri üzrə işləmək mümkündür.

Azərbaycan və Türkmənistan prezidentləri siyasi, iqtisadi, ticarət, energetika, mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri ətrafında geniş fikir mübadiləsi apardılar. Prezidentlərin danışıqlarında əsas diqqət yetirilən məsələlərdən biri də nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi oldu. Buraya yaradılmış müasir nəqliyyat infrastrukturunun potensialından hər iki dövlətin iqtisadi maraqları naminə səmərəli istifadə və logistika imkanlarının daha da artırılması daxildir. Ona görə tərəflər avtomobil, hava, su və dəmir yolu nəqliyyatında tranzit dəhlizlərini inkişaf etdirmək və düzgün logistika tərtib etmək barədə razılığa gəldilər.

Azərbaycan və Türkmənistan son illərdə öz ərazilərində müasir nəqliyyat infrastrukturunun yaradılmasına və logistika imkanlarının artırılmasına böyük sərmayələr yatırıblar. Təsadüfi deyil ki, həm Türkmənistanda, həm də Azərbaycanda bu il beynəlxalq ticarət limanlarının açılması eyni vaxtda, eyni ayda - may ayında baş verib. Azərbaycanın təşəbbüsü ilə çəkilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti ötən ildən istifadəyə verilib və bununla da" Şərq-Qərb nəqliyyat dəhlizi"nin Azərbaycanın və Türkmənistanın yerləşdiyi coğrafiyadan keçən imkanları daha da yüksəlib. Təbii ki, bütün bunlar hər iki ölkə üçün əmtəə dövriyyəsini və tranzit daşımalarını artırmağa yol açır. Bu mənada Prezident İlham Əliyevin səfəri zamanı əldə olunan razılaşmaların nəticəsi olaraq yaxın zamanlarda Azərbaycanla Türkmənistan arasında Şərq-Qərb və Qərb-Şərq nəqliyyat marşrutları üzrə tranzit yüklərin həcminin artması müşahidə olunacaq. Beləliklə də, nəqliyyat sahəsində olan razılaşmalar hər iki ölkəyə böyük mənfəət gətirəcək. Bu, həm də yeni iş yerlərinin açılmasına, iqtisadi fəallığa, Böyük İpək yolu üzərində yerləşən ölkələrdə həyat səviyyəsinin daha da yüksəlməsinə gətirib çıxaracaq.

Onu da qeyd edək ki, nəqliyyat sahəsindəki olan ikitərəfli əməkdaşlıq həm də regionda təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir. Bu mənada həm iqtisadi dividendləri, həm də təhlükəsizliyə verəcəyi töhfələrin əhəmiyyəti nəzərə alınaraq bundan sonra iki ölkə arasında məhz nəqliyyat-tranzit dəhlizləri və logistikanın inkişafı məsələləri ilə məşğul olacaq xüsusi komissiya da fəaliyyət göstərəcək. Çünki imzalanan sənədlərdən biri Azərbaycanla Türkmənistan arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Birgə Komissiyanın yaradılması haqqında Sazişdir.

Bütövlükdə, bu səfər Türkmənistanla Azərbaycan arasında ənənəvi qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edir, regionda əməkdaşlığın gözəl nümunəsini yaradır. Çünki Aşqabadda səsləndirilən təşəbbüslər, əldə edilən razılaşmalar regional tərəfdaşlığın dərinləşməsinə xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Qondarma rejimin "rəhbər"inin ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə səyahəti münaqişə üzrə vəziyyətin gözlənilməz inkişafına gətirib çıxara bilər

Erməni kütləvi informasiya vasitələrində yer almış məlumata əsasən, Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin "rəhbər"i Rusiya Federasiyasına səfər edib.

Qanunsuz separatçı rejimin nümayəndəsinin Rusiya Federasiyasının ərazisinə daxil olmasına icazə verilməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinin irəli aparılması səylərinə xələl gətirir və Rusiyanın ATƏT-in Minsk qrupunun həmsədri qismində vasitəçilik öhdəlikləri ilə ziddiyyət təşkil edir. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin yaydığı açıqlamada bildirilir.

Açıqlamada qeyd edilir ki, Rusiya tərəfinin bu addımı Azərbaycan ilə Rusiya arasında mövcud olan münasibətlərin yüksək səviyyəsinə uyğun gəlmir və ikitərəfli münasibətlərin normativ-hüquqi bazası ilə, xüsusilə də "Tərəflərin separatçı hərəkatları dəstəkləməmək, digər tərəfin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönələn şəxslərin fəaliyyətini qadağan etmək öhdəliyini" əks etdirən iki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə ilə ziddiyyət təşkil edir.

"Qondarma rejimin "rəhbər"inin ATƏT-in Minsk qrupu həmsədr ölkələrinə səyahəti münaqişə üzrə vəziyyətin gözlənilməz inkişafına gətirib çıxara bilər. Belə olacağı təqdirdə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür", - deyə açıqlamada vurğulanır.

## Arsen Baqdasaryan Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyana müraciət edib

2014-cü il dekabrın 26-da Azərbaycan Respublikasının Ağdam rayonu ərazisində qoşunların qarşıdurma xəttində təxribat törətməyə cəhd edərkən saxlanılmış və Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 5 may tarixli hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilmiş Ermənistan hərbçisi, 1994-cü il təvəllüdlü Baqdasaryan Arsen Eduardoviç Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyana müraciət ünvanlayıb.

AZƏRTAC Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının saytına istinadla xəbər verir ki, Arsen Baqdasaryan özünün yazdığı, əsir-girovların "hamının-hamıya" prinsipi ilə azad olunması ilə bağlı müraciətinin ictimaiyyətə açıqlanmasını Dövlət Komissiyasından xahiş edib.

Həmin müraciətin mətni ictimaiyyətin diqqətinə təqdim olunur.

## Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Bako Saakyanın Rusiyaya "səfəri" ilə bağlı bəyanat yayıb

"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın Rusiyaya "səfəri" ilə bağlı bəyanat yayıb.

İctimai Birliyin Əlaqələndirmə Şurasının sədri, professor Elçin Əhmədov bəyanatı AZƏRTAC-a şərh edərək bildirib ki, ABŞ, Fransa və Rusiya ATƏT-in Minsk qrupunun həmsədrləri kimi, münaqişənin nizama salınması üçün üzərlərinə götürdükləri öhdəliklərə zidd olaraq, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın öz ölkələrinin ərazisinə daxil olmasının qarşısının alınması üçün heç bir tədbir görmürlər.

Özünü Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "rəhbər"i kimi təqdim edən Bako Saakyanın 2017-ci ildə Belçikaya, cari ilin martında ABŞ-a, noyabrında isə Fransaya, ABŞ-a və Rusiyaya bir-birinin ardınca səyahətləri hər şeydən əvvəl beynəlxalq hüquq prinsiplərinə tamamilə ziddir və ATƏT-in müvafiq mandatına, vasitəçilik öhdəliklərinə də uyğun deyil.

Bako Saakyan adlı şəxs Azərbaycanın işğal altında olan ərazilərində hərbi gücdən istifadə nəticəsində formalaşdırılmış oyuncaq, qeyri-qanuni rejimin təmsilçisidir. Onun xarici, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrə səyahət etməsinə imkan verilməsi işğal, təcavüz və terrorizm əməlləri nəticəsində yaradılmış rejimin təşviqinə xidmət edir.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələri belə addımlarla ayrı-seçkiliyə əsaslanan siyasət yürüdərək etnik təmizləməyə məruz qalmış Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının hüquqlarının pozulmasına göz yumurlar.

Bir daha xatırladırıq ki, ABŞ, Fransa və Rusiya ATƏT-in Minsk qrupunun həmsədrləridir və Dağlıq Qarabağ problemini həll etmək üçün beynəlxalq ictimaiyyət tərəfindən verilən mandat əsasında vasitəçilərdir. Onlar birtərəfli addımlar əvəzinə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında barışığa, azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasına çalışmalıdırlar.

Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin zəbt etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması qeyd olunsa da, 26 il ərzində Minsk qrupunun göstərdiyi səylər indiyə kimi Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr verməyib. ATƏT-in regionda sülhpərvər fəaliyyətinin uğursuzluqlarının başlıca səbəbi məhz Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı birbaşa təcavüzü faktının etiraf olunmaması ilə bağlıdır.

Bu baxımdan biz Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrə (Fransa, ABŞ, Rusiya) "səfər"lərini Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsindən olan məcburi köçkünlər, yəni, 80 mindən çox azərbaycanlı adından kəskin şəkildə pisləyir, eləcə də hiddətimizi ifadə edir, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bu addımını Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə qarşı hörmətsizlik kimi qiymətləndiririk.

### Dövlət başçısına minnətdarlıq

## Şərəfli ömür haqqı




### Hər kəs öz taleyini yaşayır

Deyirlər, insan dünyaya gələndə onunla birlikdə alın yazısı da yazılır. Bəzən onu dəyişmək istəyənlər tapılır, amma əbəs yerə... Çünki Tanrı yazısını heç kim poza bilmir. Şəhidlik zirvəsinə yüksələn ömürlər də var. Belə ömrü yaşamaq isə asan deyil. Şəhidliyi öz ömür yolunun sonu kimi seçən, həyatını müqəddəs zirvəyə daşıyanlardan biri də Zakir Sultanov idi.

### İlk addım...

Zakir Abdulhəsən oğlu Sultanov Qusarda dünyaya göz açmışdı. Orta məktəbi bitirdikdən sonra əsgəri xidmətdə olmuşdu. Geri qayıdan Zakir ailənin böyüyü olduğu üçün işə düzəlir və dolanışıqları yaxşılaşsın deyə var gücünü sərf edir. Tikintidə bənna işləyən Zakir az bir zamanda hamının hörmətini qazanır.

O, hələ orta məktəbdə oxuyanda Qusar rayon musiqi məktəbini də bitirmişdi. Tədbirlər onsuz keçməzdi. Ansamblın rəhbəri kimi çıxış edərdi. Qardaşı Habil həmin günləri xatırlayaraq deyir ki, Zakir axşamlar toylara gedərdi: "Yaxınlıqda elə bir məclis olmazdı ki, orada Zakirin ifası eşidilməsin. Sumqayıtda musiqi kollecində təhsilini davam etdirirdi. Nağara ustası idi. Eyni zamanda klarnet və qarmonda da ifa edirdi. Hətta toylarda proqramda onun özünün xüsusi nömrələri olurdu. Zakir evə heç vaxt əliboş qayıtmazdı".

1990-cı ildə ailə quran Zakirin bir ildən sonra oğlu Ağahüseyn dünyaya gəldi. Həyat yoldaşı Sevda xanım deyir ki, Zakirlə ilk tanışlığı qohumlar vasitəsilə olub: "Elə ilk görüşdən onun necə möhkəm xarakterə malik olduğunu hiss etdim. Sonra birgə yaşadığımız illərdə yanılmadığımı başa düşdüm. Övladımız dünyaya gələndə onun necə sevindiyini ifadə də edə bilmirəm. Ağahüseyni başı üzərinə qaldırıb "mənim əsgər balam", - deyə əzizləyərdi. Onu itirdiyimizdən 24 il keçməsinə baxmayaraq, xatirəsi bu gün də hamı üçün əzizdir".

### Dedi ki, mən vətənimi sevirəm...

Qarabağ savaşı başlayanda Zakirin 30 yaşı vardı. Hər gün qarışan dünyamızda yeni hadisələr baş verirdi. Bir gün dostları Cəfər Heydərov və Zakir Muradovla evə gəlir və Sevdaya harasa getmək istədiklərini bildirir. Axşam ikilikdə qalanda Zakir belə bir gündə əlini qoynuna qoyub otura bilmədiyini söyləyir:

- Mən vətənimi sevirəm, onun başının üstünü qara buludlar alanda sakitcə otura bilmərəm, - deyir.

Növbəti gün gedib ordu sıralarına yazılır və cəbhəyə yollanır.

1990-cı ilin sentyabrından Zakir Ağdərə, Qubadlı, Cəbrayıl döyüşlərində iştirak edir. Komandanlığın minnətdarlığını alan Zakiri evə buraxırlar. Sevda xanım həmin günləri göz yaşı ilə xatırlayır:

- Günorta rəhmətlik qaynanam Fizə xanımla oturub, olub-keçənlərdən söhbət edirdik. Qaynım Habil içəri girib anasına dedi ki, şad xəbərim var. Dedik ki, nədi o xəbər? Qapını göstərdi. Baxanda Zakirin gülərüzlə içəri girdiyini gördük. Sevincimizin həddi-hüdudu yox idi. Axşam qohum-qonşu bizə yığışmışdı. Zakir döyüşlərdən söhbət açdıqca hamı ona diqqətlə qulaq asırdı. Hər kəlməsində erməni quldurlarına nifrət aşılayırdı. Onun üçün vətən hər şeydən üstün idi.

Üç gün sonra yenidən hərbi hissəyə qayıdır və Beyləqan, Füzuli rayonlarında gedən döyüşlərdə iştirak edir. Bu artıq o zaman idi ki, ordumuz düşmənə tutarlı zərbələr endirirdi. 1993-cü ildə yüngül yaralansa da, sağalıb yenidən cəbhəyə qayıdır. Həmin günlərdə dostları Cəfərlə Zakir şəhid olmuşdu. Dostlarının ölümü onu yaman sarsıtmışdı. Döyüşdən döyüşə daha da sərtləşən Zakir bir gün özü Qusara şəhid kimi dönür.

- 1994-cü ilin fevralında Füzuli istiqamətində gedən döyüşlərdə həlak olan Zakirin dəfnində bütün Qusar camaatı iştirak edirdi, - deyə Sevda xanım xatırlayır. Orta məktəb şagirdlərindən tutmuş rayon rəhbərliyinə qədər hamı onu son mənzilə yola salırdı.

### Daşı göyərən dünya

Artıq o dövrdən xeyli zaman keçib. Ağahüseyn evlənib, onun üç övladı var. Zakirin qızı Sevinc ərdədir. Üstündən keçən illər talelərin tərzini dəyişsə də, insanları dəyişdirməyib. Sevda xanım rayon mərkəzi xəstəxanasında, telekommunikasiya qovşağında işləyib. Bu gün o, təkcə Zakirlə deyil, həm də onun övladları ilə öyünür.

- Həyatda tək olmaq çox çətindir, - deyə Sevda xanım əlavə edir. Bəzən insan bu təkliyə tab gətirəcəyinə inanmır. Amma həyat sənə hər şeyi diktə edir. Yalnız qəbul etmək kifayətdir ki, sən alın yazını yaşayırsan. Həmin dövrlərdən bəri məni ümid yaşadıb. Həmişə düşünmüşəm ki, dünyanın daşı da göyərir. Sağ olsun dövlətimiz, hər ayaqda mənə kömək olub. Prezident İlham Əliyev şəhid ailələrinə böyük qayğı ilə yanaşır. 2013-cü ildə qaz sızmasından evimiz yandı. Hər şey bir anda kül oldu. Ölkə rəhbərinə məktub yazdım. İnanın ki, iki gün ərzində məktubuma cavab gəldi. Rayon rəhbərliyi mənə olmazın köməyini etdi. Demək olar ki, yenidən evi tikib mənə verdilər. Daha sonra torpaq istədim, təmin etdilər. Uşaqlarım məktəbdə oxuyanda həmişə onlara hörmətlə yanaşıblar. Özümü rayon tədbirlərinə dəvət edirlər. Şəhid ailələrinə maşın verilir, onların sosial vəziyyəti daim dövlətin diqqət mərkəzindədir. Sosial evlərdə birinci onların ailə üzvləri məskunlaşır. Bu gün dünyanın heç bir yerində insanlara belə qayğı ilə yanaşılmır və belə imtiyaz yoxdur. Bütün bunlar Prezident İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqətin nəticəsidir.

### Həyat davam edir

Sevda xanımla söhbət zamanı qapı açılır, nəvələri içəri girir. Onu da qeyd edək ki, oğul nəvəsinə Zakirin adını verib. O, fikrini belə ifadə edir:

- İnanın ki, elə bil illər ötməyib. Oğlum Ağahüseyn də atası kimidir. Əsgərlikdən gələndən sonra bir müddət əsəbləşirdi ki, müharibə başlasaydı gedib atamın intiqamını alardım. Mən ona dedim ki. sənin varlığın elə atanın yaşamasıdır. Ağıllı övladın özü atanın ardıcılı deməkdir. İndi sürücülük edir, ailəsini dolandırır. Həmişə qəlbində vətən sevgisi yaşayır. Bu, gendən gəlir. Çünki unutmayaq ki, tale bizi illər boyu ayırsa da, amma canımızda yaşatdığımız ruh bəlkə də keçmişimizin bir parçası ilə birləşir. O, bizim həyat amalımıza dönür. Belə ömrü yaşamaq çətindir, amma şərəflidir.

Sevda xanım onu da bildirdi ki, Prezident İlham Əliyevin şəhid ailələri ilə bağlı imzaladığı son sərəncamı diqqət və qayğıdan doğan bir xeyirxahlıq mücəssiməsidir. Bu gün ölkəmizdə aparılan islahatlar hər şeydən əvvəl insan kapitalının qorunmasına hesablanıb. Vərəsələrə verilən həmin 11 min manat birdəfəlik ödəmə biz şəhid ailələri üçün dövlət başçısının nikbin, xeyirxah, humanist siyasətinin tərkib hissəsidir. Həyat isə davam edir. Yaxşı ki, bizə qayğı göstərən rəhbərimiz var.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəhid ailələri daim diqqət mərkəzindədir



İldən-ilə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması, ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara imtiyaz və güzəştlərin genişləndirilməsinə də şərait yaratmışdır. Bu sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri də hərbi qulluqçulara icbari sığortanın tətbiqidir.

Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2018-ci il tarixli fərmanına uyğun olaraq 11 min manat birdəfəlik ödəmə verilməsi də məhz bu qayğının məntiqi nəticəsidir.

Naftalan sakini, şəhid hərbi qulluqçu Azər Zeynalovun atası Ələddin Zeynalov da bu ödəməni alanlar sırasındadır. Ələddin Zeynalov dedi ki, dövlətin bu qayğısını oğlum şəhid olandan sonra çox görmüşəm. Mən özüm uzun illər polis orqanlarında çalışmışam. İndi təqaüddəyəm. Dövlət ailəmiz üçün çox yaxşı mənzil-məişət şəraiti yaradıb. Azərdən başqa bir oğlum və bir qızım da var. Hər ikisi ailəlidir.

Azər Zeynalov 1973-cü ildə Naftalanda İ.Nəsimi adına orta məktəbi bitirdikdən sonra Azərbaycan Texnologiya Universitetinin qiyabi şöbəsinə daxil olmuşdu. 1992-ci ildə öz arzusu ilə döyüş bölgəsində hərbi xidmətə başladı. Həmin vaxtlar Goranboyun Gülüstan qəsəbəsinin düşməndən azad edilməsi uğrunda gərgin döyüşlər gedirdi. Azər də bu döyüşlər zamanı mərdliyinə, qorxmazlığına görə döyüş yoldaşları arasında nüfuz qazandı. Lakin 1993-cü il aprelin 14-də aldığı ağır güllə yarasından şəhid oldu. Onun cənazəsi Naftalana gətirilərək Qaşaltı Qaraqoyunlu qəbiristanlığında torpağa tapşırıldı.

Söhbət zamanı Azərin qardaşı Azay da, bacısı Vəfa da dedilər ki, Azər ailəmizin ən zəhmətkeş, qayğıkeş oğlu idi. Böyük arzuları var idi. Universitetdə əla qiymətlərlə oxuyurdu. Oxuduğu müddətdə də ətrafına çoxlu dost toplamışdı. Məqsədi yüksəkixtisaslı mütəxəssis kimi vətənə xidmət edib yararlı övlad olmaq idi. Lakin əcəl macal vermədi.

Ələddin Zeynalov dövlət başçısının şəhid hərbi qulluqçulara birdəfəlik ödəmə ilə bağlı imzaladığı fərmanı yüksək dəyərləndirərək deyir ki, bu fərman müqəddəs torpaqlarımız uğrunda canından keçən mərd oğullarımızın ailələrinə göstərilən növbəti qayğıdır. Bu qayğıya görə ailəmiz adından Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildirirəm.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# DSX-nin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilmişdir





24 noyabr 2018-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin Horadiz, Şəki və Zaqatala şəhərlərində yerləşən hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilmişdir.

Dövlət himninin səslənməsi ilə başlayan mərasimlərdə gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriki çatdırılmışdır.

Mərasimlərdə ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd edilmişdir. Çıxış edənlər Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminliklərini bildirərək onlara müvəffəqiyyətlər arzulamışlar.

Tədbirlərdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altında olan torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin edilməsi və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə edilmişdir.

Valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmiş, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə etmişlər.

Tədbir gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatmışdır.

***"Azərbaycan"***

# Polo dünyasının qrantlarına qarşı mübarizlik savaşımız davam edir:

## *məkan - Florida, növbəti rəqib - ABŞ*







Azərbaycanın qədim atçılıq tarixinin və mədəniyyətinin bütün dünyaya tanıdılmasında mühüm rol oynayan polo üzrə milli yığmamız dünya atçılıq arenalarındakı möhtəşəm və tamaşaçılara gərgin yarış həyəcanı yaşadan çıxışlarını davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə idmanın, o cümlədən də atçılığın inkişafına xüsusi önəm və dəstək verməsi sayəsində polo üzrə milli komandamız bir neçə il öncə ən xoş xəyallarda belə təsəvvür edilməyən nailiyyətlər əldə etmişdir.

Ümumiyyətlə, 2018-ci il polo üzrə milli yığmamız üçün xüsusilə məhsuldar olmuş, idmançılarımız dünya atçılıq idmanı mütəxəssislərini və fanatlarını təəccübləndirərək idman mövsümünün ən gözlənilməz uğurlarına imza atmışlar. Yanvar ayında İsveçrənin Sankt-Moritz şəhərində keçirilən Qar Polosu üzrə Dünya Kubokunda komandamızın qar üzərində ilk dəfə polo oynamasına baxmayaraq 3-cü nəticə göstərməsi əksər mütəxəssislər tərəfindən bir təsadüf kimi qarşılanmışdısa, iyun ayında Bakıda təşkil olunmuş Arena Polo üzrə Dünya Kuboku turnirində və sentyabr ayında İtaliyanın Siyene şəhərində Avropa çempionatında gümüş medallara sahib çıxmağımız niyyətlərimizin ciddiliyini və Azərbaycan komandası ilə istənilən rəqibin hesablaşmalı olmasını bütün dünyaya sübut etdi.

Beləliklə də, atçılıq dünyasının ən mötəbər yarış meydanlarını fəth etmək uğrunda polo üzrə milli yığmamızın mübarizlik savaşının növbəti meydanı Amerika Birləşmiş Ştatlarının Florida ştatı olmuşdur. Burada "Grand Champions Polo Club"da təşkil olunmuş Polo üzrə Beynəlxalq Kubok turnirinin finalında Azərbaycan milli yığması turnirin evsahibi - son 6 il ərzində ardıcıl olaraq İngiltərə, Çili, Meksika, Cənubi Afrika, Uruqvay və Braziliya komandalarını məğlub edərək turnirdə qələbə qazanmış ABŞ yığması ilə qarşılaşmışdır.

İtaliyadakı çempionat zamanı Azərbaycan millisinin oyunlarını diqqətlə izləyən ABŞ idman mətbuatı və sosial mediası bu ölkənin HBO telekanalının istehsal etdiyi, Amerikada son dərəcə populyar olmaqla ölkəmizdə də böyük fanat kütləsinə malik olan "Taxtların oyunu" teleserialı, həmçinin məşhur Amerika yazıçısı Corc Martin tərəfindən yazılmış və bu teleserialın əsasını təşkil edən "Buz və Alovun nəğməsi" əsəri ilə paralellər apararaq milli komandamızın "Odlar və buzlar diyarı" olan Azərbaycanı təmsil etməklə ABŞ yığması üçün ciddi rəqib olacağını əvvəlcədən proqnozlaşdırmışdılar.

24 noyabr tarixində baş tutmuş final oyunu xüsusilə həyəcanverici hisslər və ehtiras coşqusu ilə yadda qaldı. "PAŞA Sığorta" ASC-nin sponsorluq etdiyi milli yığmamızın baş məşqçisi Namiq Orucovun qərarı ilə komandanın start heyətinə Elçin Camallı, Amil Namazov, Andres (LaLA) Laplacette, Adrian Laplacette və Rəşad Həsənov daxil edilmişdilər. Oyun prosesində ABŞ komandası qarşısında komandamız yüksək əzmkarlıq və mübarizlik nümayiş etdirdi. Lakin son dəqiqələrdə Elçin Camallı və Amil Namazovun vurduğu möhtəşəm qollara baxmayaraq ABŞ 9:7 hesabı ilə qalib gələrək yenidən kubokun sahibi oldu. Milli yığmamız isə 2-ci yerdə qərarlaşdı.

Final oyunundan sonra adətən rəqibin çıxışını müsbət dəyərləndirməyə meyilli olmayan ABŞ idman mediası və təşkilatçılar tərəfindən idmançılarımızın oyununa yüksək qiymət verilməsi də kifayət qədər önəmli olmuşdur. Belə ki, məsələn, ABŞ-nın Polo Assosiasiyasının "Facebook" sosial şəbəkəsində yerləşdirdiyi yazıda deyilir: "Bu möhtəşəm bir qarşılaşma idi və Azərbaycan komandası olduqca yaxşı oynadı!" Eyni zamanda Amerika polosunun canlı əfsanələrindən və turnirin təşkilatçılarından olan Melissa Qanzi (Melissa Ganzi) öz "Twitter" səhifəsində Azərbaycan idmançılarına mübariz oyuna görə minnətdarlığını ifadə etmiş və bu görüşün böyük şərəf olmasını bildirmişdir.

***"Azərbaycan"***

# Bakı sərt qışa necə hazırlaşır

## Yolların buzdan və qardan vaxtında təmizlənməsi üçün Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən bütün zəruri texnika tam hazır vəziyyətə gətirilib





***Əvvəli 1-ci səh.***

Həmçinin "Azəriqaz" İB, "Azərişıq" ASC, "Azərsu" ASC, Bakı Su kanalı İdarəsi, "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi", Bakı Nəqliyyat Agentliyi payız-qış mövsümü ilə bağlı tədbirlər planlarını hazırlayaraq qərargaha təqdim ediblər. Adıçəkilən təşkilatların mövsümi tədbirlərlə bağlı görəcəkləri işlər qərargah tərəfindən koordinasiya olunacaq.

Ayaz Hüseynovun sözlərinə görə, hazırda qərargah üzvləri mütəmadi olaraq toplaşır və qarşıya çıxan problemlərin aradan qaldırılması yollarını müzakirə edirlər. Görülən işlərin əsas məqsədi qış aylarında şəhər sakinlərinin elektrik enerjisi, təbii qaz, su, istilik təchizatı və digər problemlərlə üzləşməməsinə nail olmaqdır.

### Bəs, yollar qardan, buzdan necə təmizlənəcək?

Adətən, paytaxt sakinlərini daha çox narahat edən məsələ qarlı-şaxtalı günlərdə nəqliyyat sisteminin hərəkətində yaranan problemlər olur. Etiraf edək ki, əvvəllər Bakıya yağan qar avtomobillərin hərəkətində ciddi məhdudiyyətlər yaradırdı. Qarın təmizlənmə prosesində yaşanan ləngimələr yolların buz bağlamasına səbəb olurdu. Hətta buzun tez əriməsi üçün istifadə edilən texniki duz və qum yollara fəhlələr tərəfindən bel vasitəsi ilə səpilirdi.

Ancaq bu gün Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatı şəhər təsərrüfatının balansında müasir tipli qarkürüyücü, qartəmizləyici və duzsəpən avtomobillər mövcuddur. Qarlı havada bu texnikalar vasitəsi ilə yollarda yarana biləcək istənilən çətinliklərin aradan qaldırılması mümkündür.



Qışa hazırlıqla bağlı həmin texnikaların hansı vəziyyətdə olması ilə tanışlıq üçün üz tutduq İH-in bu prosesi həyata keçirən Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təmizlik İdarəsinə.

### Texniki duz və qum ehtiyatları kifayət qədərdir

Qarşılaşdığımız ilk mənzərədən bəlli oldu ki, idarə payız-qış mövsümünə artıq tam hazırlıqlı vəziyyətə gətirilib. Yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunacaq texnika və mexanizmlər saz vəziyyətdədir. Buzun əriməsi üçün yollara səpilən texniki duz və qum ehtiyatları kifayət qədərdir.

İdarənin rəisi Mübariz Hüseynov deyir ki, bir aydan artıqdır hazırlıq işlərinə başlanılıb. Belə ki, idarənin balansında olan qış texnikası və nəqliyyat vasitələri bokslardan bayıra çıxarılaraq start vəziyyətinə gətirilib.

İdarənin anbarında hazırda 2000 ton texniki duz var. Gələcəkdə əlavə olaraq daha 1000 ton duzun alınması nəzərdə tutulub. Oktyabr ayında 300 ton duz alınaraq anbarlara yığılıb. Bundan başqa, qum ehtiyatları da kifayət qədər yaradılıb.

M.Hüseynovun sözlərinə görə, mövcud olan duz və qum ehtiyatları yollarda yarana biləcək buz probleminin aradan qaldırılmasına imkan verəcək.

### Müxtəlif təyinatlı texnikalar tam yoxlamadan keçib

Texnikalara gəlincə, idarədə hazırda 1 ədəd XCMG markalı kürüyücü avtoqreyder, 2 ədəd "Hitachi" markalı yükləyici ekskavator, 1 ədəd kürüyücü-yükləyici CAT 428F markalı avtotraktor, 2 ədəd JAK markalı vakuum tipli avtomaşın mövcuddur.

Bundan başqa, 12 ədəd MAN 18350 markalı qarkürüyücü avtomaşın, 16 ədəd KamAZ 53229 markalı qum-duz səpən və kürüyücü avtomaşın, 8 ədəd MAZ MDK 5337 markalı qum-duz səpən və kürüyücü avtomaşınlar tam hazır vəziyyətə gətirilib və sürücülərlə təmin edilib.

Texnikaların Almaniya və Rusiyadan alındığını deyən idarə rəisinin sözlərinə görə, hər avtomobil üçün 3 sürücü təhkim edilib. Yəni günün istənilən saatında baş verə biləcək problemin qarşısının alınması mümkündür.

### Bakı şəhərinin bütün rayonları üzrə təhkimçilər təyin edilib

Onu da diqqətə çatdıraq ki, 120 nəfərin çalışdığı idarə günün 24 saatı işlədiyi üçün burada çalışan əməkdaşların rahatlığı və istirahəti üçün lazımi şərait yaradılıb, otaqlar istiliklə təchiz olunub.

Gün ərzində işlərin vaxtı-vaxtında və keyfiyyətli aparılması məqsədi ilə növbətçilik tərtib edilib. Bütün işçilərə məsuliyyətləri ilə bağlı təlimlər keçirilib və Bakı şəhərinin rayonları üzrə təhkimçilər təyin edilib. Bu şəxslər mütəmadi olaraq yerlərdəki məlumatları idarəyə çatdırırlar. Burada gündəlik növbə ilə işləyən işçilərin hətta isti yeməklərlə təmin edilməsi də həyata keçirilir.

### Yolların təmizlənməsinə və duzlanmasına hazırlıqlara gecə saatlarında başlanılacaq

Yolların duzlama-qumlama prosesinə gəlincə isə Mübariz Hüseynov deyir ki, işlər hər gün idarəyə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən daxil olan telefonoqrammalara əsasən qurulur.

Əgər sabah qarlı-şaxtalı hava gözlənilirsə, gecə saatlarında texniki duzla yüklənmiş avtomaşınlar, qarkürüyücü maşınlar şəhərin bütün istiqamətlərində hazırlıq vəziyyətinə gətirilirlər. Maşınlar əsasən mərkəzi küçələrdə, körpülər və tunellərin yaxınlığında dayanırlar. Körpülərin altı boş olduğu üçün daha tez donma, buzlama ehtimalı olur. İnsanlar səhər saatlarında işə gedərkən yollar, körpülər buz örtüyündən təmizlənməlidir. Əks halda şəhərdə tıxaclar əmələ gələ bilər. Belə vəziyyətlərdə Bakı şəhəri Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları da idarə işçilərinə yardımçı olurlar. Ona görə də heç bir problem yaşanmır.

### Texniki duzun avtomobillərə və asfalta heç bir ziyanı yoxdur

Öncə onu xatırladaq ki, əvvəllər bu proses çətinliklə həyata keçirilirdi. Belə ki, texniki duz və qumla doldurulan yük maşınları yol kənarında hərəkət edir, işçilər isə bel ilə duzu, qumu yola səpirdilər. Bu, əziyyətli iş olmaqla yanaşı, həm də avtomobillərin hərəkətinə maneçilik yaradırdı. Ancaq bu gün bütün prosesi avtotexnikalar, qum-duz səpən və kürüyücü avtomaşınlar çox asanlıqla həyata keçirirlər.

İdarə rəisi deyir ki, şaxtalı havada yağan qarı və buz örtüyünü təmizləmək üçün əsasən texniki duzdan istifadə edilir. Çünki texniki duz qar və buz əriyərkən suya qarışıb yox olur. Qum isə bir qədər problem yaradır. Buz örtüyü əriyəndən sonra səkilərin kənarında yığılıb qalır və küləklə havaya sovrulur.

Ona görə də əsasən texniki duzdan istifadəyə üstünlük verilir: "Bəzi hallarda deyirlər ki, texniki duz asfalt örtüyü və avtomobillərə ziyan vurur. Bakı şəhərində hələ heç bir yola duzdan zərər dəyməyib. Avtomobillər də yuyularaq duzdan təmizlənir. Əgər duzun avtomobillərə ziyanı olsaydı, biz hər il yeni duz səpən avtomobil almaq məcburiyyətində qalardıq. Lakin texnikalarımız saz vəziyyətdə qalır".

Müasir qarkürüyücü və təmizləyici ilə təchiz olunan nəqliyyat vasitələri, duz-qum səpən texnikalarla tanışlığımıza, apardığımız müşahidələrə əsasən deyə bilərik ki, Bakı Şəhər İcra Hakimiyyəti qışa ciddi hazırlıq görüb.

Yəqin, bu qış paytaxtımızın yollarında ciddi problemlərlə üzləşməyəcəyik.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# Kapital qoyuluşunun artımı iqtisadi inkişafı təmin edən islahatların ilkin şərtidir

Hər bir ölkənin iqtisadi və sosial cəhətdən inkişafı vaxtında və aydın məqsədlərə hədəflənən islahatlardan keçir. Elmi və hüquqi cəhətdən əsaslandırılan bu cür islahatların həyata keçirilməsi və gözlənilən nəticələr verməsi üçünsə kapital qoyuluşu önəmli rol oynayır. Bu, dünya praktikasında özünü təsdiq etmiş faktordur.

Kifayət qədər vəsaiti olmayan ölkələr kapitalı adətən beynəlxalq qurumlar və ya digər dövlətlərin iri biznes strukturları vasitəsilə əldə edərək islahatlar həyata keçirirlər. Dünya təcrübəsində ən çox rast gəlinən belə üsuldan Filippin, Malayziya, Cənubi Koreya, Sinqapur, Tailand, Honq Konq kimi ölkələr istifadə etmişlər. Bu üsuldan yararlanan ölkələr kreditorlara çox əlverişli şərtlər təklif edir ki, onlar yüksək gəlir götürə bilsinlər. Çünki kapital adətən yüksək və etibarlı gəlir olan yerlərə can atır.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra xarici kapitaldan yararlanmaq üçün neft amilindən istifadə etdi. Belə ki, xarici şirkətləri neft sənayemizə kapital qoyuluşuna cəlb etmək üçün "Əsrin müqaviləsi" imzalanmış, bu müqavilədən sonra neft sənayemizə böyük miqdarda sərmayə yatırılmışdır. Bunun sayəsində Azərbaycan iqtisadiyyatı durğunluqdan canlanmaya doğru sürətlə addımlamağa başlamışdır. 1997-ci ilin payızında həmin müqavilə çərçivəsində ilk neft hasil olunmaqla ölkəmiz böyük məbləğdə gəlir əldə etməyə imkan qazanmışdır. Bundan sonra əldə edilən vəsaitdən ölkənin ümumi inkişafı istiqamətində istifadə edilməyə və sosial-iqtisadi islahatların həyata keçirilməsinə start verilmişdir.

Həmin dövrdə islahatlar ilk növbədə xidmət sahələri və kənd təsərrüfatında həyata keçirilmişdir. İslahatların sənaye və istehsal sahələrində aparılması isə özəlləşdirmənin yekun mərhələsi olmuşdur. Lakin özəlləşdirilmə özünün müsbət nəticələrini bütün imkanları ilə göstərə bilməmişdir. Səbəb özəlləşdirilən müəssisələrin yenidən qurulması, müasir texnika və texnologiyalarla təchiz edilməsi üçün sahibkarların vəsaitlərinin olmaması idi. Odur ki, dövlət özəl sektorun formalaşması və inkişafı üçün tədbirlər görmüş və bu da nəticəsiz qalmamışdır. Bunun sayəsində ölkədə qeyri-neft sektoru formalaşmış və bu sektor tədricən iqtisadiyyatda prioritet sahəyə çevrilmişdir.

Cari ilin yanvar-oktyabr ayları üzrə Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlər də qeyri-neft sektorunda əldə edilən uğurları əks etdirir. Məlumatda qeyd edilir ki, hesabat dövründə sənayedə istehsal edilən malların və göstərilən xidmətlərin həcmi 1,5 faiz artaraq 40 milyard manat təşkil edib. Sənayenin qeyri-neft sektorunda istehsal ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz artıb.

Dövlət tərəfindən özəl sektorun güzəştli kreditlərlə kapitallaşdırılması ölkədə istehsal və xidmət sahələrində sahibkarların çəkisinin ildən-ilə artmasına imkan yaradıb. Hesabat dövründə sənayedə qeyri-dövlət sektorunun payının 83 faizə çatması da bunu təsdiqləyir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11 milyard 482,7 milyon manat vəsait qoyulub. Bu dövrdə neft sektoruna yatırılan sərmayə azalsa da, qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 16,7, o cümlədən qeyri-neft sənayesinə qoyulan investisiyalar 18,2 faiz artıb.

Hesabat dövründə yatırılan ümumi sərmayənin 52,3 faizi dövlət, 47,7 faizi qeyri-dövlət sektorlarının sərmayədarları tərəfindən qoyulub. Əsas kapitala yönəldilən vəsaitin 69,3 faizi tikinti-quraşdırma işlərinə sərf edilib. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri ümumi sərmayənin 62,1 faizini təşkil edib. Statistik rəqəmlərdən aydın görünür ki, dövlət bu gün də kapital qoyuluşunda üstün mövqedədir. Səbəb dünyada sərmayə yatırımında yaranan durğunluqdur. Dövlət yaranan bu boşluğu doldurmaq üçün kapital qoyuluşunu davam etdirir ki, iqtisadi inkişafın dinamikası zəifləməsin. Ölkənin əldə etdiyi iqtisadi uğurlar bu siyasətin doğru olduğunu təsdiqləyir.

Hazırda dünyanın aparıcı ölkələri arasında, xüsusilə ABŞ-la Rusiya və Çin arasında baş verən siyasi və iqtisadi gərginlik nəticəsində xarici kapital qoyuluşunda durğunluq hökm sürür. Hamı bu gərginliyin nə ilə bitəcəyini gözləsə də, hələlik onun sonu görünmür. Ancaq ölkəmizdə olan münbit investisiya mühiti imkan verir ki, belə bir şəraitdə də Azərbaycan iqtisadiyyatına xarici sərmayə qoyulsun. Bunun nəticəsidir ki, hesabat dövründə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 4 milyard 354,6 milyon manat vəsait yönəldilib. Əsas kapitala yönəldilən xarici sərmayənin 3 milyard 518,9 milyon manatı Birləmiş Krallıq, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Rusiya, İran və Çexiya istehsalçılarına məxsusdur.

Bütün bu vəsaitlər hesabına ilin əvvəlindən ötən 10 ay ərzində Azərbaycanda, xüsusən regionlarda müxtəlif təyinatlı çoxsaylı müəssisələr tikilib istifadəyə verilib, eləcə də yeni yollar çəkilib, körpülər salınıb, təhsil, səhiyyə, mədəniyyət, idman obyektləri inşa olunub.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# BTC-nin 4001 tankerlik yükü

***Əvvəli 1-ci səh.***

Bu ilin iyul ayında BTC-nin nəql etdiyi neftin həcmi artıq 3 milyard bareli ötmüşdür. Oktyabr ayının sonunadək isə bu rəqəm 3,1 milyard bareldən artıq olmuşdur.

Beləliklə, BTC istifadəyə verildiyi vaxtdan indiyədək 408 milyon tondan çox xam neft nəql etmişdir. Cari ilin üç rübü ərzində kəmərin vasitəsilə 25 milyon tondan çox (təqribən 189 milyon barel) xam neft ixrac olunub. Bu neft həcmləri Ceyhanda 243 tankerə yüklənib. Tam sistem kimi işə düşdüyü vaxtdan bəri kəmərin daşıdığı neft isə indiyədək Ceyhanda 4001 tankerə yüklənərək dünya bazarlarına göndərilmişdir.

Hazırda bu boru xətti ilə əsasən Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neft və "Şahdəniz" yatağından hasil olunan kondensat ixrac edilir. Bundan əlavə, BTC-yə müəyyən həcmdə Türkmənistan, Rusiya və Qazaxıstan nefti də vurulur.

Qeyd edək ki, BTC-nin 11 səhmdarı var. Bunlar BP (Böyük Britaniya, 30,1 faiz), AzBTC (Azərbaycan, 25 faiz), "Şevron" (ABŞ, 8,9 faiz), "Ekvinor" (Norveç, 8,71 faiz), TPAO (Türkiyə, 6,53 faiz); "Eni" (İtaliya, 5 faiz), "Total" (Fransa, 5 faiz), "İtoçu" (Yaponiya, 3,4 faiz), "İnpeks" (Yaponiya 2,5 faiz), "EksonMobil" (ABŞ, 2,5 faiz) və ONGC (BTC) Limited (Hindistan, 2,36 faiz) şirkətləridir.

***Flora SADIQLI, "Azərbaycan"***



REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI
III DÖVLƏT PROQRAMI



# Köçkünlükdə də əkib-becərirlər



Köçkünlük həyatı yaşasalar da, öz ata-baba peşələrini davam etdirən kəlbəcərlilər aqrar sahənin inkişafına töhfələr verir, məskunlaşdıqları rayonlarda icarəyə götürdükləri torpaqlarda çalışırlar. 56 şəhər və rayonda özlərinə müvəqqəti yurd-yuva qurmuş rayon sakinləri hər il istər əkinçilikdə, istərsə də heyvandarlıqda yüksək göstəricilər əldə edirlər.

Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədov deyir ki, əvvəlki illərdə olduğu kimi, cari ilin ötən dövrü ərzində də aqrar sektorda yüksək nailiyyətlər qazanmışlar. Dövlət səviyyəsində göstərilən diqqət və qayğı sayəsində rayon üzrə iribuynuzlu qaramalın sayı 23,6 minə, davarlar 160,2 minə çatmışdır. Ev quşlarının, arı ailələrinin sayında da artım qeydə alınmışdır.

Rayon sakinləri heyvandarlığın inkişafında mütərəqqi metodlara üstünlük verirlər. Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalama yolu ilə 33 baş buzov alınmış, doğulan buzovlara görə onlara 3300 manat subsidiya verilmişdir. Heyvanlar arasında epizootik tədbirlər vaxtında həyata keçirilmişdir. Respublika Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən verilmiş dərmanlar hesabına 15203 baş qaramal, 125232 baş davar müxtəlif xəstəliklərə qarşı peyvənd edilmiş, mal-qara arasında diaqnostika və seroloji müayinələr aparılmışdır.

2018-ci ilin ötən dövrü rayon taxılçıları üçün də uğurlu olmuşdur. 554 hektar sahədə məhsul yetişdirən fermerlər 452,6 ton buğda, 192 ton arpa istehsal etmiş, orta hesabla hər hektarın məhsuldarlığını 22 sentnerə çatdırmışlar.

Müxtəlif ərazilərdə məskunlaşmalarına baxmayaraq, Kəlbəcər Suvarma Sistemləri İdarəsi fermerlərin suvarma suyuna olan tələbatını ödəmək üçün bütün imkanlardan istifadə etmişdir. İdarənin balansında olan 1169 hektar sahənin suvarılmasını təmin etmək üçün böyük və kiçik həcmli kanallar lildən və bitki örtüyündən təmizlənmiş, su keçidləri, suötürücülər təmir edilmiş, ərazilərə suvarma suyunun vaxtında çatdırılması təmin olunmuşdur. Məsələn, "DUANE"-S kəndli-fermer təsərrüfatının suvarma suyu ilə təminatı üçün 4000, "Şəhriyar" kəndli-fermer təsərrüfatına məxsus torpaq sahəsində şoranlaşmanın qarşısının alınması üçün 3500 metr uzunluğunda kollektor-drenaj şəbəkəsi və 4500 metr suvarma kanalı lildən və bitki örtüyündən təmizlənmişdir. "Şəhriyar" kəndli-fermer təsərrüfatının ərazisindən fərdi təsərrüfatlara gedən suvarma kanalının sahələrə keçən hissəsinə 6 metr uzunluğunda beton boru qoyularaq baş hissəsində ötürücü quraşdırılmış, "Çilgəz" kəndli-fermer təsərrüfatının ərazisində 3800 metr suvarma kanalları təmizlənmiş, lazım olan yerlərdə təmir işləri aparılmışdır.

Göygöl rayonunda salınmış Murovdağ qaçqın şəhərciyində məskunlaşan kəlbəcərli məcburi köçkünlərin əkin sahələrinin suvarma suyu ilə təminatı da diqqət mərkəzində saxlanılır.

Artezian quyularının istismarı da nəzarətdədir. Samux rayonu Alıuşağı qəsəbəsində məcburi köçkünlərin istifadə etdikləri, Göygöl rayonu ərazisində olan Xasabağ qəsəbəsində, eləcə də Gəncədəki 1500 ailəlik qaçqın şəhərciyinin yaşıllıq ərazisinin qorunması məqsədilə istifadə olunan artezian quyularının nasosları yeniləri ilə əvəz edilmişdir.

Bu tədbirlər aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən işlərə təkan vermiş, fermerləri daha da fəallaşdırmışdır. Məhz bunun nəticəsidir ki, Bərdədəki "DUANE"-S və Samuxdakı "Babək Balacaoğlu" kəndli-fermer təsərrüfatlarında uğurlar qazanılmışdır. "Babək Balacaoğlu" kəndli-fermer təsərrüfatının rəhbəri Balaca Tağıyev dedi ki, onlara işləmək üçün hər cür şərait yaradıb. Bunun sayəsində qısa vaxt ərzində təsərrüfat xeyli genişləndirilib: "Hazırda 20 baş qaramal, 1500 baş davarımız var. Heyvanları yemləmək üçün hər il 850 hektarda yonca, xəsil əkirik. 4 yatağımız var. İl boyu heyvanları bəsləyərək satır, yerinə körpələrini alırıq".

Rəhman İsmayılovun rəhbərlik etdiyi "DUANE"-S kəndli-fermer təsərrüfatının da uğurları çoxdur. 40 baş qaramal, 300 baş davarı olan təsərrüfat 1998-ci ildən fəaliyyət göstərir və əsasən, Kəlbəcər rayonunun balansında olan 200 hektar torpaq sahəsindən istifadə edilir. Bu il 56 hektar sahədə buğda yetişdirilmiş və hər hektardan 22 sentner məhsul götürülmüşdür.

Bir sözlə, kəlbəcərlilər məcburi köçkün həyatı yaşasalar da, kənd təsərrüfatı məhsulları istehsalında əllərindən gələni əsirgəmir, istifadələrindəki torpaqda əkib-biçir, heyvandarlıqla məşğul olurlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Yeni müəssisələr inşa olunur





Ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində müşahidə olunan inkişafı Ağdaş rayonunun timsalında da görmək mümkündür. Rayonun iqtisadi göstəriciləri əvvəlki illə müqayisədə xeyli artıb. Bunun nəticəsidir ki, cari ilin 9 ayında rayon büdcəsinin mədaxil hissəsi 3 milyon 222,4 min manat proqnoza qarşı 3 milyon 350,1 min manat icra olunmaqla 104 faiz yerinə yetirilib.

Məlum olduğu kimi, regionların sosial-iqtisadi inkişafının prioritet istiqamətlərindən biri qeyri-neft sektorunun inkişafı və bu sahəyə investorların cəlb edilməsidir. Müvafiq istiqamət Ağdaş rayonunda da diqqət mərkəzində saxlanılır. Rayon icra hakimiyyəti başçısının birinci müavini İsmayıl Yusifzadə deyir ki, yerli və xarici sərmayənin cəlb olunması üçün Ağdaşda hərtərəfli şərait yaradılır: "Artıq biyan emalı zavodunun tikintisi başa çatmaq üzrədir. Saatda 2,3 ton biyan doğrama gücü olan müəssisə tam istifadəyə verildikdən sonra burada 150-180 nəfər işlə təmin olunacaq. Bununla yanaşı, rayonun Dəhnəxəlil kəndi ərazisində yeni asfalt-beton zavodunun tikintisi də yekunlaşır. 4 hektar ərazidə yerləşən müəssisənin layihə dəyəri 20 milyon manat, istehsal gücü saatda 240 kvadratmetr olacaq. Asfalt, beton, bitum istehsal edəcək zavod istifadəyə verildikdən sonra burada təxminən 60 nəfər çalışacaq".

Məlum olduğu kimi, ölkənin turizm potensialından səmərəli istifadə Azərbaycan hökumətinin qarşısında dayanan mühüm vəzifələrdəndir. Bu baxımdan Ağdaşa qonşu olan Qəbələ turistlərin daha çox axın etdiyi rayonlardandır. Hazırda Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi əsasında Ləki-Qəbələ birxətli dəmiryolu inşa olunur. Ümumi uzunluğu 43, Ağdaş rayonu ərazisindən keçən hissəsi 23 kilometr olan dəmir yolunun tikintisində 350-dən çox adamın işləməsi nəzərdə tutulub.

Son illər aqrar sektora göstərilən diqqət, ənənəvi sahələrin dirçəldilməsi suvarma suyuna tələbatı da xeyli artırmışdır. Bu tələbatın ödənilməsi üçün Prezidentin müvafiq sərəncamına əsasən, 2017-ci ildə Ağdaş rayonunda əkinə yararlı, lakin suvarılmayan 15 min 800 hektar sahənin əkin dövriyyəsinə daxil edilməsi məqsədi ilə 3 layihənin icrasına başlanılıb. Birinci layihə üzrə 4 min 300 hektar sahənin Yuxarı Şirvan kanalı vasitəsi ilə suvarılması üçün 15,3 min metr magistral kəmərin tikintisi başa çatıb. İkinci layihə çərçivəsində Kür çayı vasitəsi ilə 7 min hektar sahənin suvarılması üçün görülən işlər davam edir. Üçüncü layihəyə aid olan 4 min 500 hektar sahənin Türyançay vasitəsi ilə suvarılması üçün hidrotexniki qurğunun tikintisi isə yekunlaşıb.

Ağdaşda təhsilin səviyyəsinin yüksəldilməsi məsələsinə də xüsusi diqqət yetirilir. Son 15 ildə dövlət büdcəsi və Heydər Əliyev Fondunun vəsaiti hesabına rayonda 27 yeni məktəb binasının inşası bunu sübut edir. Bundan əlavə, 7 məktəbdə əlavə sinif otaqları inşa edilib və 6 ümumtəhsil məktəbi əsaslı təmir olunub. Bütövlükdə isə 9 min nəfərə yaxın şagirdin təhsil şəraiti yaxşılaşdırılıb. Eyni zamanda, Yenikənd, Pirəyir, Dovudlu, Qumlaq və Aşağı Zeynəddin kəndlərinin hər birində modul tipli yeni məktəb quraşdırılıb. Prezidentin 7 aprel 2018-ci il tarixli sərəncamına əsasən, cari ildə Xınaxlı, Bulaqotağı, Malay, Binələr və Əmirmahmud kəndlərində də bu cür məktəblərin quraşdırılması nəzərdə tutulub. Ağdaş şəhərində isə 80 yerlik körpələr evi-uşaq bağçası tikilir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Taxtakörpü qəsəbəsi abad şəhərdən seçilmir

Yaxın keçmişdə quru səhranı xatırladan, ilan mələyən düzlər abad bir diyara çevrilib. Dövlət başçısının təşəbbüsü ilə Qarqar çayından Taxtakörpü ərazisinə çəkilən "Qayğı" kanalı sözün həqiqi mənasında bu yerlərə həyat gətirib.






Əsrlər boyu kotan dəyməyən, əkilib-becərilməyən ərazilər yaşıl ormana, pambıq tarlalarına, taxıl zəmilərinə, bostan-tərəvəz sahələrinə, barlı-bəhrəli meyvə bağlarına, gül-çiçəkli bağçalara çevrilib. Dövlətin davamlı və yetərli dəstəyindən güc alan, ürəyinin oduna, əllərinin zəhmətinə güvənən laçınlılar ələbaxımlıq psixologiyasından uzaq həyat tərzi yaşayır, süfrələrinin çörəyini, ailələrinin güzəranını öz zəhmətləri ilə qazanırlar.

Bu gün Taxtakörpü qəsəbəsi abad şəhərdən seçilmir. Geniş və rahat asfalt yollar, abad küçələr, ilin bütün fəsillərində baharı xatırladan yaraşıqlı parklar, müasir üslubda inşa edilmiş müxtəlif sosial obyektlər qəsəbəyə yaraşıq verir. Yeri gəlmişkən qeyd edək ki, ölkənin hansı bölgəsində məskunlaşmasından asılı olmayaraq, müxtəlif şəhər və rayonlarda məcburi köçkünlər üçün yeni salınan yaşayış komplekslərində laçınlılar üçün də evlər, mənzillər ayrılır. Bu yaxınlarda Tərtər rayonunda inşa edilmiş 1170 ailəlik yeni yaşayış kompleksində 170, "Qobu Park" yaşayış kompleksində 96 laçınlı ailəsinə geniş və rahat mənzillər verilmişdir. Bu yaşayış komplekslərində Laçın rayonunun idarəçiliyinə verilmiş 4 məktəb və bir tibb məntəqəsi müasir bina və avadanlıqlarla təmin olunmuşdur.

Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli dedi ki, doğma yurdundan, isti yuvasından perik salınmış, torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş laçınlılara dövlətin davamlı qayğısı, Prezident İlham Əliyevin doğma münasibəti onlar üçün böyük təsəllidir: "Laçın camaatı inanır ki, dövlətimizin, Azərbaycan Ordusunun artan qüdrəti sayəsində torpaqlarımız tezliklə işğaldan azad ediləcək və biz öz yurdumuza dönəcəyik. Dövlətin qayğısı sayəsində səhra gülüstana çevrilib, ailələr torpaq daxmalardan geniş, işıqlı və rahat mənzillərə köçmüşlər". Taxtakörpü ərazisində 645 evdən ibarət yeni qəsəbələrin tikintisinə yaxın günlərdə start veriləcək. Artıq bu məqsədlə layihə-smeta sənədləri hazırlanmışdır. Vağazin obasında 256, Qarakeçdi obasında 245, Şeylanlı obasında 144 evdən ibarət yeni qəsəbələrin inşası laçınlı məcburi köçkünlərin rahatlığına, xoş güzəranına sanballı töhfə olacaq".

Taxtakörpü ərazisində məskunlaşmış əhalinin sosial ehtiyaclarını ödəmək üçün zəruri tədbirlər görülür. Elektrik enerjisi ilə təminatda problemlər aradan qaldırılmışdır. Cari ildə obalarda müxtəlif gücə malik 10 yeni elektrik transformatoru qoyulmuş, 35 transformator təmir edilmişdir. Əhalinin su təminatına gəldikdə, Mişni nasos stansiyası təmir olunmuş, yeni boru xətləri çəkilmişdir. Mişni-Mayis, Taxtakörpü-Qarakeçdi, Kür çayı-Mişni magistral su xətlərində karroziyaya uğramış borular yenisi ilə əvəz olunmuşdur. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə Ağbulaq, Sadınlar və fingə obalarında 256 ailənin içməli su ilə təminatını yaxşılaşdırmaq üçün modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Aqrar sektora göstərilən dövlət qayğısı bu sahəyə marağı artırıb





Aqrar sektora dövlət tərəfindən qoyulan investisiyalar ilbəil artır, yeni fermer təsərrüfatları yaranır. Bunun da nəticəsində həm daxili bazarda bolluq yaranır, həm də ölkənin ixrac potensialı çoxalır.

İxtisasca bioloq olan Arif Qazıyev də dövlətin iş adamlarına göstərdiyi qayğıdan ruhlanaraq Samux rayonunun Ağasıbəyli kəndində fermer təsərrüfatı yaradıb. Özünə məxsus torpaq sahəsində bostan bitkiləri yetişdirməklə yanaşı, heyvandarlıq, quşçuluq və arıçılıqla da məşğul olur, hər il uğurlu göstəricilər qazanır. Hazırda təsərrüfatda xeyli iribuynuzlu və xırdabuynuzlu mal-qara var. Onların qış mövsümündə yemlə təminatında da problem yoxdur. Bunun üçün 0,5 hektarda yonca əkən fermer toplanan yemin mal-qaraya bəs etdiyini söyləyir. Təsərrüfatda 50 təknə arı ailəsi də saxlayır, hər il bal satmaqla da xeyli gəlir götürür.

Arif Qazıyev Azərbaycan Dövlət Aqrar Universitetinin dosentidir. Rusiya Təbiətşünaslıq Akademiyasının fəxri professorudur. Mətbuatda kənd təsərrüfatına aid məqalələrlə çıxış edir. Onunla təsərrüfatda görüşdük. Dedi ki, boş vaxtlarımda təsərrüfatla məşğul oluram. Hərdən tələbələrimi də bura gətirib təcrübə keçirəm.

Ölkə rəhbərinin iş adamlarına yaratdığı şəraiti yüksək qiymətləndirən və buna görə minnətdarlıq edən Arif Qazıyev söhbət əsnasında qeyd etdi ki, yaradılan şəraitdən bəhrələnərək, təsərrüfatı genişləndirmək fikrindədir. Bunun üçün kənddə pay torpaqları olan bir neçə nəfərlə danışıqlar aparır. Razılıq olsa, əkin sahələrini genişləndirərək taxıl əkmək arzusundadır. Hazırda gələn ilin bol məhsulu üçün hazırlıq işlərinə başlanılıb. Əkin sahələri təmizlənir, bostan bitkilərinin əkini üçün yer hazırlanır.

Təsərrüfatda 6 nəfər daimi işlə təmin edilmişdir. Məhsul satışından əldə olunan gəlir işçilər arasında münasib bölünür.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Sahələrdən 1390,2 min ton məhsul yığılıb



Cari ilin noyabr ayının 1-nə kimi sahələrdən keçən ilin müvafiq dövrünə nisbətən 5,6 faiz çox tərəvəz, 885,5 min ton (keçənilki qədər) kartof və 401,6 min ton (8,2 faiz az) bostan məhsulları yığılıb.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin müddət ərzində 804,1 min ton (11,7 faiz çox) meyvə və giləmeyvə, 146,3 min ton (7,8 faiz çox) üzüm, 845,2 ton (20,2 faiz çox) yaşıl çay yarpağı, 271,7 min ton (1,5 faiz az) şəkər çuğunduru, 188,0 min ton (21,8 faiz çox) pambıq, 24,1 min ton (19,4 faiz az) dən üçün günəbaxan, 4,8 min ton (6,6 faiz çox) tütün toplanıb.

# Yol infrastrukturu yenilənir

"Azəravtoyol" Dövlət Agentliyinin Quba rayon 5 saylı yol istismar idarəsi bir neçə aydır ki, Nügədi Qazmalar yaşayış məntəqəsində tikilən yeni binaya köçüb və burada işçilər üçün lazımi şərait yaradılıb. Avtomobil yollarına texniki xidmət göstərmək, yeni yollar çəkmək üçün lazım olan bütün texniki vasitələr yenilənib, idarənin maddi-texniki bazası möhkəmləndirilib.

Ərazidə yeni asfalt zavodu da quraşdırılıb. Asfalta artan tələbatın ödənilməsi və Şimal bölgəsində fəaliyyət göstərən müəssisələrin sifarişlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə edilib. Hazırda burada iki asfalt-beton qurğusu vasitəsilə asfalt-beton istehsal edilir. Türkiyə istehsalı olan zavod saatda 160 ton, Ukrayna istehsalı olan zavod isə 60 ton asfalt-beton istehsal etmək gücünə malikdir. Tələbatın çoxluğu nəzərə alınaraq saatda 140 ton istehsal həcminə malik daha bir zavod quraşdırılır. Maşın və traktorların təmiri və saxlanması üçün 21 talvar da tikilir.



İşgüzar kollektivin əməyi sayəsində qısa müddətdə 23 kilometrlik Quba-Hacıhüseynli yolu asfaltlanaraq istifadəyə verilib. 33 kilometrlik Quba-Zərqava və 65 kilometrlik Gəndob-Qəçrəş yolları isə əsaslı təmir olunur.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

> Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarix-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir.
>
> *Heydər ƏLİYEV*

# Zəngin tarixin və çağdaş dəyərlərin ünvanı

Naxçıvan ərazisi antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələri ilə təkcə Azərbaycanın, türk-islam aləminin deyil, həm də dünyanın ən qədim yaşayış məskənlərindəndir. Aparılmış elmi tədqiqatlar sübut edir ki, Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Bu ərazi antik, orta əsrlər və müasir dövr mədəniyyət nümunələri və tarixi abidələrlə - ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir.

VII yüzillikdən etibarən müsəlman Şərqində təşəkkül tapan sufi təriqətləri Azərbaycanda və eləcə də Naxçıvanda geniş yayılmışdı. Bu təriqətlərə rəhbərlik edən şeyxlər bir sıra yaşayış məskənlərində öz yaşayış, ibadət, zikr və təhsil mərkəzlərini qurur, ətraflarına müridlər toplayır, ideyalarını mənimsədir, onlar vasitəsilə yerli əhali arasında və ətraf ölkələrdə yayırdılar. Orta əsrlərdə Naxçıvanda çoxlu belə xanəgahlar yaradılmışdı. Bunlardan Naxçıvan və Ordubad şəhərlərindəki xanəgahları, Culfa bölgəsindəki Əlincəçay xanəgahını və başqalarını misal göstərmək olar. Məşhur sufi şeyxlərinin rəhbərliyi altında fəaliyyət göstərən bu xanəgahlar müsəlman Şərqinin böyük xanəgahları ilə sıx əlaqədə olmuş, Azərbaycanın və qonşu ölkələrin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışlar.

Naxçıvanın tarix-memarlıq və mədəniyyət abidələri arasında Eldənizlər dövrü tikintilərin özünəməxsus yeri vardır. Azərbaycan Atabəyləri dövlətinin yaranması Eldənizlər sülaləsinin banisi Atabəy Şəmsəddin Eldənizin adı ilə bağlıdır. II Toğrulun ölümündən sonra hakimiyyətə gəlmiş Sultan Məsud (1135-1152) Eldənizi mərhum sultanın dul qalmış arvadı Mömünə xatınla evləndirir, 1136-cı ildə isə Arranı iqta kimi ona verib Bərdəyə yola salır. Şəmsəddin Eldəniz Naxçıvan vilayətini öz mülklərinə birləşdirir və iqamətgahını Bərdədən Naxçıvana köçürür. O, sultan sarayından iqta aldığı Arrandan başqa Azərbaycanın bütün cənub rayonlarını, habelə Naxçıvanı müstəqil idarə etməyə və öz adından pul kəsdirməyə başlayır. 1146-cı ildə atabəy Naxçıvan vilayətini öz torpaqlarına birləşdirir və həmin dövrdən başlayaraq Naxçıvan şəhəri və vilayəti Eldəniz nəslinin irsi iqtasına çevrilir. XI əsrin II yarısından başlayaraq Naxçıvan şəhəri səlcuq əmirlərinin əsas iqamətgahlarından biri idi. Yaqut əl-Həməvinin Azərbaycanın böyük şəhəri adlandırdığı "Naxçıvan (Nəşavə)" şəhəri artıq XII əsrin 40-cı illərindən başlayaraq Eldənizlər sülaləsinin nümayəndələri olan Azərbaycan atabəylərinin doğma (xass) mülk-tac şəhərinə çevrilir. Şəmsəddin Eldəniz ailəsi Mömünə xatın və övladları ilə birlikdə burada yaşayır.

Mənbələrdən bu da məlumdur ki, sultanın anası və atabəyin arvadı olan Mömünə xatının əsas iqamətgahı Naxçıvan şəhəri olmuşdur. 1175-ci ilin noyabrında Şəmsəddin Eldənizin arvadı və Səlcuqlu tarixinin ən məşhur xatınlarından olan Mömünə xatın Naxçıvanda vəfat etmişdir. Azərbaycan Atabəyləri dövlətinin siyasi həyatında mühüm rol oynayan bu ağıllı qadın Naxçıvanda torpağa tapşırıldı. Atabəy Eldəniz onun qəbri üzərində məqbərə tikdirməyə başladı. Lakin Mömünə xatından bir ay sonra zəmanəsinin böyük siyasi xadimi, Azərbaycan Atabəyləri dövlətinin yaradıcısı, bu dövlətin, eləcə də Naxçıvanın ictimai-siyasi həyatında mühüm rol oynamış Şəmsəddin Eldəniz özü də vəfat etdi. Məqbərənin tikintisi Atabəy Cahan Pəhləvanın vaxtında başa çatdırıldı. Türbənin uca gövdəsini yuxarıda qapayan yazı qurşağında - abidənin baş kitabəsində yazılmışdır: "...Bu məqbərəni dünyanın elmli adil məliki, böyük qalib Şəmsəddin Nusrət əl-islam və vəl-müslimin Cahan Pəhləvan Atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz... dünyanın və dinin calalı, islamın və müsəlmanların namusu Mömünə xatının xatirinə tikməyi əmr etdi!.." Baştağ çərçivəsinin üstündə abidənin tikilmə tarixinin "məhərrəm 582" (1186)-ci ilin yaz cağı olduğunu aydınlaşdıran Ə.Ələsgərzadə türbə yaxınlığında olmuş baştağın kitabəsindəki məlumata, eləcə də tarixi qaynaqlara əsaslanaraq belə bir məntiqi nəticəyə gəlmişdir ki, "...türbə Cahan Pəhləvanın ölümündən bir az öncə bitmiş, baştağ isə onun ölümündən sonra tikilmişdir. Şübhəsiz ki, Cahan Pəhləvanın özü də bu türbədə dəfn edilmişdir".

IX-XII əsrlərdə Azərbaycanda memarlıq sahəsində intibah baş verdi. İslam dini Azərbaycan memarlığına yeni üslub gətirdi. Tarixi qaynaqlara əsasən, bu dövrdə Azərbaycanın bir sıra şəhərlərində olduğu kimi, Naxçıvan, Ordubad və Culfa şəhərlərində, iri yaşayış məntəqələrində gözəl imarətlər, məscidlər, minarələr, türbələr ucaldılmışdır. XII əsrdə Naxçıvanda memarlıq özünün inkişaf mərhələsinə qədəm qoyub, dövrünün "şeyxül-mühəndisi" adlanan Əcəmi Naxçıvani yaradıcılığı ilə yalnız Azərbaycan memarlığına deyil, Yaxın Şərq memarlığına da güclü təsir göstərib. Əcəmi Naxçıvani o dövrdə Yusif Küseyir oğlu türbəsi, Mömünə xatın türbəsi, Qoşaminarə, Cümə məscidi, Darülmülk və başqa nadir memarlıq inciləri yaratmışdır ki, onlardan yalnız ikisi günümüzə qədər gəlib çatıb. Memarın ilk əsəri olan Yüsif Küseyir oğlu türbəsinin qapısı üstündəki kitabədə yazılır: "Bu türbə xacə, şanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunun sərdabasıdır". Dünya memarlığının nadir incilərindən olan və Naxçıvanın simvoluna çevrilən Mömünə xatın türbəsinin xarici səthləri müxtəlif ölçülü kərpiclərdən qurulmuş ərəb əlifbasından ibarət kitabələr, həndəsi ornamentlər və gəc üzərində nəbati təsvirlərlə bəzədilib. Onüzlü türbənin bütün üzləri kənarlardan "Yasin" surəsinin ayələri ilə haşiyələnib. Türbənin daxilində günbəzin iç tərəfində yerləşdirilmiş dörd medalyon nəbati ornamentlərlə bəzədilmiş, onların içərisində kufi xətlə kitabələr yerləşdirilmişdir. Daha çox dövrümüzə çata bilmiş xatirə abidələrində - türbələrdə qalmış məhz bu nümunələr yeni dövrün mədəniyyətində xalqın əski adət-ənənələrindən, zəngin mənəvi dünyasından doğan elementləri özündə yaşadır. Müqayisələr göstərir ki, memar Əcəminin bizə məlum ilk abidələrindən olan, xalq arasında "Atababa günbəzi" adı ilə tanınan Yusif Küseyir oğlu türbəsinin gövdə hissəsinin səkkizüzlü inşa edilməsi, Xaraba Gilandan 1980-ci ildə açılmış sərdabanın xaricdən kubşəkilli, daxildən isə səkkizbucaqlı tikilməsi (5, s. 394), vaxtı ilə Aza şəhərinin bir məhəlləsi olmuş Der kəndi yaxınlığındakı "Der günbəzi" adlanan türbənin səkkizguşəli olması (4, s. 308) və nəhayət, Əcəminin şah əsəri Mömünə xatın türbəsindəki ulduzların 8 və 12 guşəli olması heç də təsadüfi deyildi.

Bu kitabələri oxumuş Ə.Ələsgərzadə belə nəticəyə gəlmişdir: "Onüzlü türbənin bütün üzləri kənarlardan "Yasin" surəsinin mətni ilə haşiyələnmişdir. İki dəfə təkrar olunmaqla bu surə bir dəfə I üzdən V-yə, o biri dəfə VI-dan X üzədək davam edir. Hər üzdə yazı sağda aşağıdan başlayıb yuxarı qalxır, sonra yuxarıda üfüqi davam edir və soldan aşağı enir". "Yasin" surəsi ilə haşiyələnmiş üzləri lap yuxarıda başqa bir yazı qurşağı birləşdirir. Bu, türbənin sifarişçisini (...Şəmsəddin Eldəniz) və kimin xatirəsinə (Mömünə xatın) ucaldıldığını bildirən baş kitabədir.

Mömünə xatın türbəsi yüksək sənət əsəri, orta əsr Azərbaycan memarlığının şah əsəridir. Məşhur sənətşünas, akademik M.V.Alpatov Mömünə xatın türbəsi haqqında yazır: "Belə yüksək memarlıq forması duyğusuna, kompozisiyanın belə klassik kamilliyinə və mükəmməl işlənməsinə bu zamanlar Orta Avropada təsadüf etmək mümkün deyildir. Naxçıvan türbəsindən klassik Şərq ədəbiyyatının ən yaxşı əsərləri Firdovsinin "Şahnamə" (X-XI) və yaxud Nizaminin "Leyli və Məcnun" (XII əsr) poemasında olduğu kimi, insanpərvərlik nəfəsi gəlir".

XII əsr Azərbaycan mədəniyyətinin "intibah dövrü" hesab edilir. Məxəzlərdən məlumdur ki, Eldənizlər ölkədə və eləcə də dövlətin mərkəzi olmuş Naxçıvanda mədəniyyətin müxtəlif sahələrinin inkişafına qayğı göstərmişlər. Şəmsəddin Eldəniz Naxçıvanda məktəblər açdırmış, mədrəsələr, məscidlər tikdirmişdi. Bu dövrdə həmçinin Azərbaycan elmi vahid islam mədəniyyəti adlanan mədəniyyətin tərkib hissəsi kimi inkişaf edirdi.

Culfa yaxınlığındakı xalq arasında "Gülüstan" adlanan türbənin kitabəsi olmadığı üçün inşaat tarixi məlum deyildir. Üslub xüsusiyyətlərinə əsasən türbənin XIII əsrdə tikildiyi ehtimal edilir. İki mərtəbədən ibarət olan "Gülüstan" türbəsinin aşağı mərtəbəsi sərdaba vəzifəsini görürmüş, yuxarı mərtəbə əsas etibarilə binaya memorial tikinti mahiyyəti verməyə məxsus bir quruluşdur. Başqa oxşar türbələrdən fərqli olaraq, "Gülüstan" türbəsinin əsas xüsusiyyəti ondadır ki, burada sərdaba yerin səthindən yuxarıda yerləşir. Türbənin xarici həcmi də başqa türbələrdən fərqlənir: aşağı hissəsi kvadrat, yuxarı hissəsi on iki bucaqlıdır. Yuxarı on iki səthli prizma ilə kürsülük vəzifəsini görən aşağı hissəni bir-birindən geniş bir stalaktit qurşağı ayırır. Stalaktit qurşağından yuxarı hissəni təşkil edən on iki səthinin şimala yönəlmiş giriş səthindən başqa bütün səthləri daşdan oyulmuş həndəsi naxışlarla örtülmüşdür. Memar üç müxtəlif şəkilli həndəsi naxışları səthlər üzərində elə sıralamışdır ki, tamaşaçı həmişə qonşu səthlərdə müxtəlif naxışlar görür. Səthləri örtən həndəsi naxışlar Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əsərlərindəki həndəsi naxışlarla oxşardır. Öz monumental tikinti quruluşu və ecazkar görünüşü ilə fərqlənən abidələrdən biri də Kəngərli rayonunun Qarabağlar kəndindəki memarlıq kompleksidir. Kompleks türbədən, qoşa minarədən və bir dini binanın qalıqlarından ibarətdir. Qoşa minarələrin XII əsrdə tikildiyi güman edilir. Qoşa minarələri birləşdirən portalın isə daha sonra (XIV əsrdə) tikildiyi fikri irəli sürülür. Bürc tipli türbələrin əsas xüsusiyyətləri Qarabağlar türbəsində də özünü göstərmişdir. Türbə aşağı sərdabadan və yuxarı yerüstü hissədən ibarətdir. Abidənin indi dağılmış günbəzinin konus şəklində olduğu müəyyən edilmişdir.



Ordubad rayonunun Aza kəndi yaxınlığında yerləşən Darkənd türbəsi də maraqlı memarlıq quruluşu və dekorativ bəzək elementləri ilə fərqlənir. Türbə bişmiş kərpicdən hörülmüş, orta hissəsi bürcvarı türbələr biçimində olub, yuxarı hissədən sferik günbəzlə tamamlanmışdır. Abidənin dörd tərəfində yerləşdirilmiş giriş portallar qülləvarı türbələrə xas olsa da, mərkəzi özəyə söykənən, bir növ, dayaq divarlarını xatırladan quruluşa malikdir. Türbənin üzərində tünd-bənövşəyi rəngli kaşı və adi bişmiş kərpicdən hörülmüş sadə naxışlar yeganə bəzək elementidir. Darkənd türbəsinin mürəkkəb kompozisiya quruluşu, üzərindəki kaşı bəzəklərinin rəngi abidənin Qarabağlar və Bərdə türbələrindən daha sonra, XIV əsrin axırlarında və ya XV əsrin əvvəllərində tikildiyinə ehtimal verir.

XIII-XV əsrlər üçün xarakterik olan memarlıq abidələrindən biri də Naxçıvan buzxanalarıdır. Günümüzə qədər salamat gəlib çatmış Naxçıvan və Ordubad buzxanaları daha maraqlıdır. Memar Naxçıvandakı binanın üstünü bağlayan örtüyün sadə tağtavan formasında adi həllindən imtina etmiş, yüngüllüyü və dinamikliyi ilə fərqlənən konstruktiv sxem yaratmışdır. Belə konstruksiyaya respublikamızın ərazisində çox nadir hallarda təsadüf edilir. Buna müəyyən dərəcədə oxşar konstruksiyaya yalnız Ordubad buzxanasında rast gəlinir. Hər iki buzxananın XIII-XIV əsrlərdə tikildiyi ehtimal olunur.

Gənzə kəndində günümüzə qədər gəlib çatmış maraqlı tarixi-memarlıq abidələrindən biri də Hacı Hüseynqulu məscididir. Naxçıvan bölgəsinin ən qədim məscidlərindən biri hesab edilən abidənin daxili böyük salondan ibarətdir. Sonrakı əsrlərdə qadınların sərbəst ibadəti üçün qərb tərəfdən əlavə bina tikilib kişilərə aid salona birləşdirilmişdir. Məscidin əsas qədim hissəsi daşdan tikilmiş və tavanı üç böyük daş sütun üzərində dayanır. Həm sütunların, həm də sütunla divarların arası tağtavanla birləşdirilib. Divarların qalınlığı bir metrdir. Salonda 5 divar tağçası düzəldilib. Məscidin 12 tağlı eyvanı və əlavə qonaq otağı vardır. Məscid XV əsrdə yaşamış çox nüfuzlu el ağsaqqalı Hacı Hüseynqulu tərəfindən tikdirilmişdir.

Səfəvilər dövrünə aid abidələr içərisində dini mahiyyət daşıyan binalardan məscid, təkyə, zaviyə, minarə və mədrəsələr əsas yer tutur. Belə binalardan biri də XVII əsrdə inşa edilmiş Ordubaddakı mədrəsədir. Bu bina Azərbaycanda zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir. Mədrəsə ikimərtəbəli olub, tələbələrin yaşaması üçün hücrələr, dərs otaqları, onların qarşısında kiçik eyvanlardan və bir neçə təsərrüfat binalarından ibarətdir. Baş şimal fasadı tərəfdən yeganə giriş yolu həyətə aparır. Fasada çatmatağlı tağçaların aramlı cərgəsi bir-birindən bəsit çıxıntılarla - kürələrlə ayrılmış fasad mərkəzdə sadə baştağla bölünmüşdür. Burada başlıca kompozisiya vasitəsi nisbətən kiçiktağlı tağçaları iri portalla təzadlı surətdə qarşılaşdırmaq olmuşdur. Bütün bu xüsusiyyətlərinə görə Ordubad mədrəsəsi XVI-XVII əsrlər Azərbaycan karvansaralarına çox oxşayır, lakin karvansaralardan fərqli olaraq, burada məscid mərkəzdə yerləşir. Ordubad mədrəsəsində başqa mədrəsələrdə təsadüf edilən böyükhəcmli məscidin olmaması yaxınlıqda Cümə məscidinin yerləşməsi ilə izah edilə bilər. Ordubad rayonunun Yuxarı Əylis kəndindəki Şah Abbas məscid kompleksi Ordubad mədrəsəsindən sonra yanında mədrəsə və hamam binası olmaqla indiyədək salamat gəlib çatmış ikinci məsciddir.

Ordubaddakı Mingis məscidinin kitabəsindən aydın olur ki, məscid hicri-qəməri təqvimi ilə 1088-ci ildə (miladi 1677-ci il) Əbdülhüseyn Ordubadinin oğlu Məhəmməd Hadi tərəfindən bərpa etdirilmişdir. XVII əsrin ikinci yarısında bərpa etdirilən məscidin inşa tarixi daha əvvəlki dövrlərə aiddir. Ordubad mədrəsəsindəki məsciddən fərqli olaraq, Mingis məscidinin ibadət salonu daha geniş və işıqlıdır. Abidənin düzxətli tavanı mərkəzdə qoyulmuş sütunlar və salonun kənar divarlarının üstündə yerləşdirilmişdir. Yamacda tikildiyindən şimal tərəfdən bir, cənub tərəfdən ikimərtəbəlidir. Məscidin əsas girişi şimal tərəfdəndir. Sadə biçimdə tikilən abidədə dövrunun memarlıq üslubuna uyğun olaraq dekorativ elementlərdən istifadə edilməmişdir.

Ordubad rayonunun Dırnıs kəndində tikildiyi və XVII əsrə aid edilərək Böyük məscid adı ilə tanınan Came Naxçıvan memarlıq məktəbi ənənələrini özündə yaşadan maraqlı tarixi-memarlıq abidələrindən biridir. İki girişi olan məscidin əsas girişi qərbdəndir. Qadınlar üçün giriş isə şərq tərəfdəndir. Tavan iki cərgə yerləşdirilmiş on dirəyin üzərində dayanıb. Şərq və şimal divarın qarşısında qadınlar üçün ikinci mərtəbədə balkon düzəldilib. XX əsrdə iki dəfə bərpa və təmir olunan məscidə giriş dəhlizi və minarə əlavə olunmuşdur.

Ordubadın mülki memarlıq abidələri içərisində diqqəti daha çox cəlb edən tarixi-memarlıq abidələrindən biri də Qeysəriyyə binasıdır. Qeysəriyyə binası XVII əsrə aid tarixi-memarlıq abidəsi olub şəhərin mərkəzində yerləşir. Uzun muddət "Zorxana" adı ilə tanınan bu bina mərkəzi səkkizbucaqlı zaldan və onun üzərini örtən dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan və dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən ibarətdir. Qeysəriyyə sözünün mənası ləl-cavahirat satılması üçün nəzərdə tutulmuş örtülü bazar deməkdir. Bu tip mülki memarlıq abidəsinə yalnız dünyanın üç yerində - Səmərqənd, Təbriz və Ordubadda rast gəlinir. Ordubad Qeysəriyyəsi bunların ən abad və görkəmlisidir.

Naxçıvan şəhərinin cənub hissəsində yerləşən İmamzadə memarlıq kompleksinə daxil olan əsas türbə Səfəvilər dövrünə aid olan və Naxçıvan memarlıq məktəbi ənənələrini özündə yaşadan maraqlı abidələrdən biridir. Kompleksin əsasını zahiri kompozisiyasına görə günbəzli məqbərə ilə qülləvarı türbənin birləşdirilməsindən ibarət olan kvadrat plana malik türbə təşkil edir. Türbənin daxili quruluşu isə kvadrat özüllü sərdaba ilə stalaktitlərlə tamamlanmış sferik günbəzlə örtülmüşdür. Türbənin qüllə hissəsinin silindrvarı gövdəsinin dekorativ həlli naxçıvanlı memar Əhməd Əyyub oğlu tərəfindən ucaldılmışdır. Bərdə türbəsi ilə tam eyniyyət təşkil edir. Üfüqi düzülmüş qırmızı kərpiclər və şaquli qoyulmuş göy-bənövşəyi rəngli kaşılı kərpiclər dönə-dönə təkrarlanan epiqrafik motivli bütöv bir xalını xatırladan naxış kompozisiyası əmələ gətirir. Naxçıvan imamzadələrindən bəhs edərkən Babək rayonunun Nehrəm kəndindəki Nehrəm imamzadəsi və Şərur rayonunun Xanlıqlar kəndindəki Parcı imamzadəsini də yaddan çıxarmamalıyıq. Hər iki abidə dövrünün memarlıq ənənələrini özündə əks etdirən maraqlı abidədir. Hər iki imamzadə kompleksinin mərkəzində türbə və onun ətrafında digər yardımcı binalar yerləşdirilmişdir. Türbələrin üstü günbəzlə örtülmüşdür. Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Hacı Məhəmməd Nəqinin adı Ordubad rayonunun Dəstə kəndindəki Meydan məscidinin kitabəsində çəkilir. Memarın XVII əsrin əvvəllərində yaşayıb-yaratdığı məlum olur. O, Dəstə kəndindəki Meydan məscidini tikməklə bərabər eyni zamanda Vənəndçayın üzərində salınmış və hal-hazırda qalıqları qalan və el arasında "Hacı Nağı körpüsü" adlanan körpünü də inşa etmişdir.

XVI əsr Azərbaycan sənətkarlığı tarixində ən zəngin dövrlərdən biri sayılır. Tarixdən məlumdur ki, Səfəvilər dövləti əmələ gələndən sonra Azərbaycan mədəniyyəti çox yüksək bir səviyyəyə çatmışdır. Bu zaman adları çox ölkələrdə məşhur olan zərgərlər, parça və xalça toxuyanlar və başqa sənətkarlar meydana çıxmışdı. Bu dövrdə Naxçıvanın şəhər və kəndlərində çoxlu toxucu, zərgər, misgər, duluscu, həkkak, dabbağ, parça rəngləyən və başqa sənətkarlar çalışırdı. Onların hazırladıqları məmulatlar ölkədən çox-çox uzaqlarda şöhrət qazanmışdı. Hal-hazırda XVI-XVII yüzilliklərə aid ən zərif və orijinal yonulmuş məzar daşlarına Naxçıvanda, Ordubadda, Culfada, Şahbuzda və muxtar respublikanın digər rayonlarında rast gəlmək olur. Bu məzar daşları üzərində böyük məharətlə yonulmuş həndəsi, nəbati ornamentlərlə yanaşı, insan, heyvan, quş fiqurlarına və hətta əsl mənada süjet xarakteri daşıyan kompozisiyalara da rast gəlirik. Bunlardan yalnız bəzək kimi deyil, həm də dəfn olunmuş şəxsin cinsini, həyatını, peşəsini əks etdirən məzar daşları üzərində qılınc, qalxan, at, qoc, qartal, təsbeh, qadınların məzar daşları üzərində iynə, sap, güzgü, qayçı və s. təsvirlərə rast gəlirik. Məzar daşları üzərində, bundan əlavə, bir çox simvolik mahiyyət daşıyan rəsmlərə də rast gəlinir. Bunlardan islamı təmsil edən Ay-ulduz, Günəşi bildirən svastika və ya zolaqlı dairə naxışlarını göstərmək olar.

Naxçıvanın tarix-memarlıq və mədəniyyət abidələri arasında Eldənizlər və Xan saraylarının, Qeysəriyyə, Səqqaxana və digər mülki tikintilərin özünəməxsus yeri vardır. Tarixi qaynaqlar bu memarlıq abidələri haqqında da məlumat verir. Naxçıvan şəhəri Azərbaycan Atabəylər dövlətinin paytaxtı olarkən (1146-1175) görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Eldənizlər sarayı ("Darülmülk") tikilmişdir. Azərbaycan Atabəylər dövlətinin idarə olunduğu dövrdə saray-kompleksin ilk tikintisi olmuş, ətrafdakı digər abidələr sonradan inşa olunmuşdur. "Əcaib əd-Dünya" əsərində adı çəkilən "Darülmülk"ün Eldənizlər sarayı olduğunu mənbələr təsdiq edir. Naxçıvan şəhərində zəmanəmizədək yaxşı vəziyyətdə gəlib çatan tarix-memarlıq abidələrindən biri də 1787-ci ildə Naxçıvan xanlığının ən görkəmli xanlarından olan I Kalbalı xan Kəngərli tərəfindən inşa etdirilən Xan sarayıdır. Şərq memarlıq üslubunda tikilmiş Xan sarayı XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuşdur. 1834-cü ildə Naxçıvanda olmuş fransız səyyah Düba de Monpere Xan sarayını "bir neçə həyət və çoxlu zəngin bəzədilmiş otaqdan ibarət saray" kimi dəyərləndirmişdir. Xan sarayı ikimərtəbəli olmaqla, iki ayrı-ayrı bölmədən ibarət olmuşdur. Bölmənin biri xan ailəsinin yaşayış yeri, digəri isə yüksək mənsəbli qonaqların qəbulu üçün nəzərdə tutulmuşdu. I Kalbalı xan XIX əsrin əvvəllərində burada Rusiyadan İrana gedən rəsmi nümayəndə heyətini qəbul etmişdir.

Həmin dövrdə Naxçıvan şəhərinin ən möhtəşəm memarlıq abidəsi olan Cümə məscidi Mömünə xatın türbəsi yaxınlığında yerləşmişdir. XVII əsrdə Naxçıvanda olmuş fransız səyyah Tavernye Naxçıvan abidələrinə heyranlığını gizlətməmiş və Naxçıvan Cümə məscidini Asiyada ən möhtəşəm məscid kimi qiymətləndirmişdir. Bu məscid haqqında V.Engelqardt (XIX əsr) "Qafqaz" qəzetində yazmışdır: "Bu, yonulmuş daşdan hörülmüş tağlara malik nəhəng bir binadır. Onun daxilində hələ də gözəl işlənmiş oyma qabartmaların izləri var. Binanın bir hissəsi uçub tökülmüş, qalan hissəsi isə uçmaq təhlükəsi altındadır". Biz bu abidənin XIX əsrdə çəkilmiş fotosundan həqiqətən də təsvir olunduğu kimi möhtəşəm olduğunu görürük. Qeyri-adi quruluşa malik olmuş bu məscid dövrünün ən böyük və yüksək memarlıq üslubu ilə tikilmiş abidəsi olduğu ehtimalını irəli sürməyə imkan verir.

Orta əsrlər zamanı Naxçıvan ərazisində fəaliyyət göstərən ən böyük və nüfuzlu xanəgahlardan biri Xanəgah Abidələr kompleksi olub. Kompleksin əsasını təşkil edən türbənin içərisində XIV əsrdən etibarən Azərbaycanda geniş yayılan hürufilik təliminin banisi Fəzlullah Nəimi dəfn olunub. Kompleks əsaslı şəkildə bərpa olunaraq ziyarətçilərin istifadəsinə verilib. Bu gün də əhali müqəddəs məkan kimi bu abidəni ziyarət edir, məkanın mənəvi saflıq və rahatlıq verdiyinə inanır.

Qədim mədəniyyət mərkəzlərindən biri olan Azərbaycan bütün dövrlərdə dünyanın diqqətində olub. Müxtəlif mədəniyyətlərin, dünyagörüşlərinin vəhdət təşkil etdiyi ölkəmizdə islam mədəniyyətinin xüsusi yeri var. Azərbaycanda bir sıra şəhərlər, eləcə də tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri olan Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynayıb. Müəyyən səbəblərdən dağılmağa məruz qalmış bəzi abidələr isə sonrakı illərdə, xüsusilə dövlət müstəqilliyi bərpa edildikdən sonra təmir və bərpa olunmuş, onlara ikinci həyat verilmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının həm tarixinin, həm mədəniyyətinin, həm də adət-ənənələrinin milli-tarixi kontekstdə elmi tədqiqinə ehtiyac olduğunu göstərmişdir. Belə ki, ulu öndər Milli Elmlər Akademiyasının üzvləri ilə görüşündə XIX-XX yüzillərdə tariximizin obyektiv yazılmasının, onun düzgün tədqiq edilməsinin zəruriliyini qeyd etmişdir.

Milli və mənəvi dəyərlərimizə qayıdışın və tariximizin öyrənilməsi siyasətinin məntiqi davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mədəniyyət abidələrinin əsaslı şəkildə tədqiq edilməsi, qeydə alınması, bərpa edilməsi və gələcək nəsillərə çatdırılması üçün 6 dekabr 2005-ci il tarixdə "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix-mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" sərəncam imzalamışdır. Bu sərəncama əsasən muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili məqsədilə komissiya yaradılmışdır. İşçi qrupu muxtar respublika ərazisində 1218 abidəni qeydə almış və pasportlaşdırmışdır. Qeydə alınaraq pasportlaşdırılan bu abidələrdən 841-i yeni aşkar olunmuş və ilk dəfə elmi dövriyyəyə daxil edilmişdir.

Naxçıvanın müasir inkişafında milli və mənəvi dəyərlərimizə qayıdış xüsusi yer tutur. Son illər muxtar respublikada 139 məscid tikilmiş və yenidən qurulmuş, 70-dan artıq tarix və mədəniyyət abidəsi bərpa edilərək dindarların və zəvvarların ixtiyarına verilmişdir.

Muxtar respublika ərazisində islam mədəniyyətinin qiymətli abidələri sırasına İmamzadələr də daxildir. Müxtəlif bölgələrdə yerləşən, milli ornamentlərə və yüksək memarlıq xüsusiyyətlərinə malik İmamzadələr bərpa olunub. 1200-dən artıq tarixi abidəyə malik olan Naxçıvan özündə 57 dünya əhəmiyyətli abidəni hifz etməklə bəşər mədəniyyətini zənginləşdirir.

Naxçıvan Muxtar Respublikasının 2017-ci ilin mühüm iqtisadi göstəricilərinə görə Azərbaycan Respublikasının regionları arasında birincilik qazanması burada illərdən bəri aparılan ardıcıl quruculuq proseslərinin qanunauyğun məntiqi nəticəsidir. Naxçıvanın 2018-ci ilin Gənclər Paytaxtı seçilməsi burada insan resurslarının sürətli artımı ilə bərabər, həm də ölkəmizin yeni nəsillərinin inkişafına yaradılan geniş imkanları da nümayiş etdirir. Eyni zamanda İslam Ölkələrinin Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ISESCO) təklifi ilə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş VI konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. Bu bir reallıqdır ki, bəşər sivilizasiyaları arasında islam sivilizasiyasının daim xüsusi yeri olub. Ümumiyyətlə, islamın geniş yayılmasını təkcə dini etiqad baxımından izah etmək düzgün olmazdı. İslamın yayılması həm də mədəni ənənə və elmlə bağlıdır. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynayıb. Naxçıvanın İslam Mədəniyyətinin və Gənclərin Paytaxtı olması həm də keçmişlə gələcək arasında sağlam körpü, nəsillərarası qırılmaz mənəvi bağlar deməkdir. Sağlam milli-mənəvi və dini dəyərlər, dövlətçilik və vətənpərvərlik ideyaları əsasında yetişən gəncliyin formalaşdırılması baxımından ali təhsil müəssisələrinin üzərinə də müəyyən öhdəliklər düşür. Bu istiqamətdə Naxçıvan Dövlət Universitetində təşkil olunmuş "Tarixi abidələrimizi tanıyaq və tanıdaq" adlı yaradıcılıq müsabiqəsinin özünəməxsus rolu olmuşdur.

Bütün bunlar bir daha təsdiq edir ki, Naxçıvan təkcə islam aləmi üçün deyil, bütün dünya xalqları üçün bəşəriyyətin ikinci yaradılış yeri hesab edilir. Məhz buna görə də bu gün Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı adına layiq olmaqla yanaşı, həm də sivilizasiyalararası dialoqun ideal mərkəzi kimi çıxış etməyə, dünya mədəniyyətinin mərkəzi olmağa layiqdir.

**Sevinc ABBASOVA,**
***Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə elmlər doktoru***

## Ziyarətgahlarımız

Pir Həsən ziyarətgahı qədim Mərdəkan kəndində, əsrarəngiz bir məkanda yerləşir. Ziyarətgahla bağlı diqqətçəkən məqamlar çoxdur. Onlardan biri də burada ziyarət ediləcək bir deyil, bir neçə türbənin olmasıdır. Türbələrin əbədi sakinləri isə müxtəlif dövrlərdə fərqli talelər yaşayıblar.



# Müqəddəslərin məkanı - PİR HƏSƏN

### Hacı Zeynalabdin Tağıyevin vəsiyyəti...

Ziyarətgah bir neçə həyətdən ibarətdir. Ziyarətçiləri səliqəsi, hovuzları, ağacları ilə diqqəti cəlb edən bağda ilk "qarşılayan" səxavəti, yardımsevərliyi ilə yaddaşlarda qalan Hacı Zeynalabdin Tağıyevin büstüdür. Elə Azərbaycanın bu xeyirxah övladının qəbri də Pir Həsən ziyarətgahının ərazisindədir. Hacı Zeynalabdin Tağıyevin büstünün sağ tərəfində Axund Hacı Mirzə Əbu Turab Axundzadənin türbəsi var. Kiçik dəmir hasarlarla dövrələnmiş bu türbənin mərkəzində axundun özünün, onun ətrafında isə Hacı Zeynalabdin Tağıyevin (məzar daşında doğum və ölüm tarixləri qeyd olunmayıb), onun qızı Sara xanımın (1899-1991) və repressiya qurbanı olmuş Zeynal bəy Ağabəy oğlu Səlimxanovun (1886-1941) qəbirləri var. Sonuncunun - Zeynal bəy Səlimxanovun məzarı boşdur. Çünki sovet hakimiyyətinin repressiya siyasəti qurbanlarının çoxu kimi, Zeynal bəyin də harada dəfn olunması haqqında heç bir məlumat yoxdur. Doğmaları qayınatasının və həyat yoldaşının dəfn olunduqları türbədə Zeynal bəy Səlimxanova rəmzi olaraq məzar daşı qoydurublar.

Türbənin qarşı tərəfində vurulmuş iri lövhədə qeyd edilir ki, Axund Hacı Mirzə Əbu Turab Axundzadə 1815-ci ildə Bakının Əmircan kəndində anadan olub. Dövrünün mütərəqqi, maarifpərvər şəxsiyyətlərindən sayılan, fəlsəfə və din tarixinə dair bir sıra kitabın, tədqiqatın müəllifi olan Axund Hacı Mirzə Əbu Turab ilahiyyat elminin ən görkəmli nümayəndələrindən idi. Onun təşəbbüsü, xeyir-duası ilə Bakı şəhəri və ətrafında bir çox maarif ocağı yaradıldı. Doğma kəndi Əmircanda açdığı ilk rus-tatar məktəbində isə axund özü müxtəlif elmlər tədris etdi. O, 1908-ci ildə dünyasını dəyişdi. Qəbrinin üstündəki türbəni xatirəsinə hörmət və ehtiram əlaməti olaraq milyonçu Murtuza Muxtarov tikdirdi.

1924-cü ildə vəfat edən məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin öz vəsiyyətinə əsasən, Axund Hacı Mirzə Əbu Turabın qəbrinin ayaq tərəfində dəfn olunmasının da çox maraqlı tarixi var. Deyilənlərə görə, söhbətləri əsnasında axund milyonçuya söyləyir ki, elə bir gün gələ bilər, bütün var-dövlətin əlindən çıxar, milyonlarından əsər-əlamət qalmaz. O qədər malını, pulunu nə vaxtsa tamamilə itirəcəyi Hacı Zeynalabdinə inanılmaz görünür. Ancaq Axund Əbu Turabın vəfatından on iki il sonra - 1920-ci ildə bolşeviklər Azərbaycanda hakimiyyəti ələ keçirirlər və varlıların bütün əmlakını müsadirə edirlər. Hacı Zeynalabdin Tağıyev də bir günün içərisində müflis olur. Axund Əbu Turabın uzaqgörənliyindən heyrətə gələn Hacı Zeynalabdin onun ayağının altında dəfn olunmasını vəsiyyət edir.

### Ziyarətgahda iki ocaq var

Bir adla - Pir Həsən adı ilə tanınsa da, əslində, ziyarətgahda iki ocaq var. Bir-birindən çox da uzaqda yerləşməyən, üzərlərində günbəzlər olan həmin iki türbənin daha qədimi VII İmam Musa Kazımın qızı, VIII İmam Rzanın isə bacısı Həzrət Xədicənin türbəsidir. Bu türbəyə bir neçə pilləkən endikdən sonra daxil olmaq mümkündür.

Ziyarətgah haqqında bugünədək maraqlı rəvayətlər danışılır. Söylənilir ki, İmam Musa Kazımın otuz yeddi övladı - on səkkiz qızı və on doqquz oğlu olub. Oğlu, VIII İmam Rza Məşhəd şəhərində şəhadətə yetdikdən sonra imamın ailəsinə, yaxın qohumlarına qarşı təzyiqlər gücləndirildiyindən onlar təhlükəsiz bildikləri yerlərə pənah aparmaq məcburiyyətində qalırlar. Elə Azərbaycana da bu səbəbdən üz tuturlar. İmam Musa Kazımın qızlarından dördü - Həkimə xanım, Rəhimə xanım, Leyla xanım və Xədicə xanım Bakıya yola salınırlar.

Rəvayətə görə, dənizdə gəmi parçalanır və imam övladlarının hərəsi bir tərəfə gedib çıxır. Bundan sonra Bakının müxtəlif yerlərində məskunlaşan imam qızlarının məzarları da bir-birindən ayrı düşür. Həkimə xanım Bibiheybətdə, Rəhimə xanım Nardaranda, Leyla xanım Bilgəhdə, Xədicə xanım isə Mərdəkanda dəfn olunurlar.

İllər keçir. İmam qızı Xədicənin qəbrinin üzərini qum örtür. Məzar itib-batır. Sonradan kənd sakinləri onun qəbrini tapır.

Həzrət Xədicənin İmam Musa Kazımın Azərbaycana gələn qızları arasında yaşca ən kiçiyi olduğu söylənilir. Ehtimal edilir ki, bu kəndə gələnədək böyük əzab-əziyyətlər çəkən, xəstəliyə düçar olan imam qızı Mərdəkanda çox yaşamayıb. On iki yaşında ikən vəfat edib.

### Seyid Həsən kimdir?

Ziyarətgahın adını aldığı Pir Həsənin isə XV əsrdə ölkəmizdə məskunlaşan Peyğəmbər davamçılarından olduğu söylənilir. Onun bu kəndə necə gəlib çıxması haqqında məlumat yoxdur. Məlum olan odur ki, Seyid Həsən dövrünün üləmalarından sayılıb. Onun türbəsi yer səthindən 20 metr hündürlükdə yerləşir. Üzərindəki günbəzə çıxmaq üçün pillələr var. Bir zamanlar oradan azan sədaları ilə insanları ibadətə çağırıblar.

Pir Həsənin türbəsinin üzərindəki ərəbcə kitabəni AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Məşədixanım Nemətova belə tərcümə edib: "Bu mübarək məqbərə ən kamil insanların nümunəvisi Pir Həsənindir. Əzəmətli xaqan Şah Abbas - Allah onun hökmranlığını əbədiləşdirsin - vaxtında Dərviş əl-Hüseyni tikdirmişdir. Min iyirmi birinci il".

Kitabədən məlum olur ki, günbəz XVII əsrdə tikilib. Deyilənlərə görə, Pir Həsən çıldaq, yəni közlə müalicə edirmiş. Bu gün də həmin ənənə davam etdirilir. Elə bu səbəbdən də Pir Həsən ziyarətgahına xalq arasında "Çıldaq" da deyirlər. Pirin müqəddəsliyinə tapınanlar bura həm də öz qorxularını götürmək, bədnəzəri uzaqlaşdırmaq üçün qədim Şərq müalicə üsulu olan çıldaq müalicəsi almaq məqsədilə gəlirlər. Bu müalicə iki mərhələdə aparılır. Pir Həsənin ziyarətçiləri arzu edərlərsə, türbənin içərisində, bir küncdə əyləşmiş çıldaqçı qadına yaxınlaşa bilərlər. Çıldaqçı hazırda Azərbaycanın bir sıra bölgələrində, əsasən də Bakı kəndlərində qorxugötürmə yerləri olduğunu deyir: "Ancaq ən təməl ocaq bu pirdir ki, XV əsrə aiddir. Bu müalicə üsulu da Pir Həsənin özündən gəlmədir. O, vəfat etdikdən sonra müalicənin uğurlu olması üçün çıldaq onun türbəsində edilir".

Bir məqamı da diqqətə çatdıraq ki, qədim zamanlardan Mərdəkan Azərbaycan xalq memarlığının mərkəzi sayılıb. Sonralar da bura maraq itməyib. Ötən əsrlərdə Bakının varlı adamlarının Mərdəkana meyil göstərmələri də həm buranın tarixinin zənginliyindən, həm də özünəməxsus ab-havasının olmasından irəli gəlirdi. 1890-cı illərdə Bakının neft milyonçusu Murtuza Muxtarovun Mərdəkanda bağı olub. Milyonçu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin bu qəsəbədə 1885-1924-cü illərdə yaşadığı ev indi də qalmaqdadır.

Mərdəkandakı bir sıra tarixi abidələr indiyədək qorunub saxlanılır. Pir Həsən ziyarətgah kompleksinə daxil olan türbələrin də hər biri memarlıq abidəsidir və dövlət tərəfindən mühafizə olunur.

Pir Həsən ziyarətgahı da əksər müqəddəs sayılan ocaqlar kimi, sovet dövründə uçulub dağıldı. Ölkəmizin müstəqilliyi bərpa olunduqdan sonra xalqın milli adət-ənənələrinə, dini inanclarına ehtiramla yanaşılmağa başlanıldı. Pir Həsən ziyarətgahı da tikilib bərpa edildi. 1990-cı illərin əvvəllərində pirin ərazisi və buradakı türbələr qumdan təmizləndi. Cənab İlham Əliyev 2000-ci ildə ARDNŞ-nin birinci vitse-prezidenti olarkən öz təşəbbüsü ilə bu türbə və ətraf ərazidə abadlıq və bərpa işləri gördürmüşdü.

2005-ci ildə isə Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Bakının Mərdəkan qəsəbəsində Pir Həsən ziyarətgahında əsaslı təmir və bərpa işləri apardı. Ziyarətgahdakı məqbərə yenidən inşa edildi, ibadətgah kompleksi milli, dini ornamentlərlə bəzədildi, memarlıq abidəsi olan və dövlət tərəfindən mühafizə edilən türbənin ətraf ərazisində abadlıq işləri aparıldı, park salındı.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

## Ukraynada hərbi vəziyyət elan olundu



Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurası (MTMŞ) "silahlı təcavüzün dəf olunması üçün şərait yaratmaq məqsədilə" ölkədə 60 gün müddətinə hərbi vəziyyətin tətbiqi barədə qərar qəbul etmişdir. MTMŞ-nin katibi Aleksandr Turçinovun dediyinə görə, qərarı Ukrayna Prezidenti Pyotr Poroşenko dəstəkləmişdir.

Prezident bildirmişdir ki, hərbi vəziyyətin tətbiqi Kiyevin müvəqqəti olaraq işğal edilmiş Ukrayna ərazilərini siyasi-diplomatik yolla azad etməkdən imtina demək deyil. Qərar Ali Radanın növbədənkənar iclasında təsdiq edilmişdir. Kiyevdən daxil olan xəbərə görə, srağagün Ukrayna hərbi dəniz qüvvələrinin üç gəmisi Kerç boğazı rayonunda silahdan istifadə olunmaqla ələ keçirilmişdir. Altı ukraynalı dənizçi yaralanmışdır.

Rusiya Federal Təhlükəsizlik Xidməti bəyan etmişdir ki, Ukrayna gəmiləri sərhədi pozduğuna görə Qara dənizdə saxlanmışdır və onların hərəkətini dayandırmaq üçün silahdan istifadə edilmişdir.

Ukrayna Rusiyanın hərəkətlərini təcavüz aktı kimi qiymətləndirmişdir.

## İranda zəlzələ nəticəsində 550 nəfər yaralanıb



İranın qərbində, İraqla həmsərhəd Kirmanşah əyalətində baş vermiş 6,3 bal gücündə zəlzələ nəticəsində 550 nəfər yaralanmışdır. İraq ərazisində bir nəfər həlak olmuş, 43 nəfər xəsarət almışdır. Bu barədə "Press TV" telekanalı xəbər verir.

İranda xəsarət alanların əksəriyyəti Gilanqərb, Qəsri-Şirin və Sərpoli-Zohab şəhərlərinin sakinləridir.

Avropa-Aralıq dənizi Seysmoloji Mərkəzindən verilən məlumata görə, yeraltı təkanlar İraqın paytaxtı Bağdadın 148 kilometr şimal-şərqində və İlam şəhərinin 101 kilometrliyində qeydə alınmışdır. Fəlakətin ocağı 40 kilometr dərinlikdə olmuşdur.

## ABŞ miqrantları güllə və gözyaşardıcı qazla qarşıladı



ABŞ-ın güc strukturlarının əməkdaşları Amerika-Meksika sərhədini keçməyə cəhd edən 500 qeyri-leqal miqranta qarşı gözyaşardıcı qazdan istifadə etmiş və onları rezin güllələrlə atəşə tutmuşdur. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

"Excelsior" qəzetinin xəbərinə görə, iki ölkənin sərhədində, Meksikanın Tixuana şəhərində "tam xaos" müşahidə olunur: ərazinin üzərində helikopterlər uçur, amerikalı hərbçilər isə məftilli hasar arxasında sərhəddə patrul xidməti aparır. ABŞ-ın sərhəd xidməti Kaliforniyanın San-Diyeqo şəhərinin cənubunda yerləşən San-İsidro hissəsində avtomobillərin və piyadaların hərəkətini qadağan etmişdir.

Qeyd olunur ki, miqrantlar "Biz cinayətkar deyilik! Biz beynəlxalq işçilərik!" şüarı səsləndirmişlər. Bəzi miqrantların əlində ABŞ və Honduras bayraqları olmuşdur.

Son məlumata görə, Tixuana və Mexikali şəhərləri rayonunda Honduras, Qvatemala və Salvadordan gəlmiş 5600 qaçqın cəmləşmişdir.

## Əfqanıstanın qərbində 22 polis həlak oldu



"Taliban" radikal hərəkatının silahlıları Əfqanıstanda təhlükəsizlik qüvvələrinin maşın karvanına hücum etmişdir. Nəticədə azı 22 polis əməkdaşı həlak olmuşdur. Bu barədə "Pajvak" agentliyi xəbər verir.

Hadisə ölkənin qərbində yerləşən Fərəh əyalətində baş vermişdir. Agentliyin məlumatına görə, taliblərin hücumu zamanı 5 polis əməkdaşı yaralanmışdır.

## Avropa İttifaqı Brexiti təsdiqlədi



Belçikanın paytaxtı Brüsseldə keçirilmiş növbədənkənar sammitdə Avropa İttifaqının (Aİ) 27 dövlətinin liderləri Böyük Britaniyanın Aİ-dən çıxması (Brexit) barədə sazişin layihəsini təsdiqləmişlər. Bu barədə Avropa Şurasının prezidenti Donald Tusk məlumat vermişdir.

Üzv ölkələrin başçıları təxminən yarım saat ərzində Böyük Britaniyanın Aİ-dən çıxmasının şərtlərini müəyyənləşdirən 600 səhifəlik müqaviləni, habelə tərəflərin gələcək ticarət münasibətlərinin yer aldığı 26 səhifəlik bəyannaməni imzalamışlar. Növbəti addım sazişin Britaniya parlamenti tərəfindən təsdiqlənməsi olacaq.

Xatırladaq ki, srağagün Böyük Britaniyanın Baş naziri Tereza Mey Brexitin şərtləri barədə saziş layihəsini dəstəkləmək xahişi ilə britaniyalılara müraciət etmişdi. O bildirmişdi ki, gələn il martın 29-da Birləşmiş Krallıq Aİ-ni tərk edəcək və xalqın həyatında yeni fəsil başlayacaq.

Böyük Britaniyanın Aİ-dən çıxması barədə qərar 2016-cı il iyunun 23-də keçirilmiş referendumda qəbul olunmuşdur. Brexit 2019-cu il martın 29-dək baş tutmalıdır. Bundan sonra 21 ay davam edəcək keçid dövrü başlayacaq. Bu müddət ərzində Böyük Britaniya Avropa vahid bazarında və Aİ-nin Gömrük İttifaqında qalacaq. Lakin ölkələr yeni saziş barədə razılığa gəlməsə, keçid dövrünün müddəti uzadılacaq.

## Atəşkəs rejimi sutka ərzində 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, işğal altında olan Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qobu Dilağarda, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## "Bakı Metropoliteni" QSC struktur bölmələrində havalandırma, santexnika, tamamlama və digər işlərin satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Zakir Hacıyev; telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Bakı Metropoliteni" QSC struktur bölmələrində havalandırma, santexnika, tamamlama və digər işlərin satın alınması

**iştirak haqqı - 200 manat**
**Hesabın adı: "BAKI METROPOLİTENİ" QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: "AZƏRTÜRK BANK" ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 dekabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 yanvar 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 yanvar 2019-cu il saat 16:30-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Ümumi şöbəsinin müdiri Tələtüm Quliyevə əzizi

**İLQAR ZEYNAL OĞLU CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin Ümumi şöbəsinin müdiri Tələtüm Quliyevə əzizi

**İLQAR ZEYNAL OĞLU CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Fuad Məmmədov, Aqşin Məmmədzadə, Elçin Quliyev, Sarvan Sadıqov, İsmayıl Cəfərov, Ayxan Kazımov, Ayan Murtuzova, Nüşabə Xəlilova, Səməd Sultanov, Rüfət Ələkpərov, Yunis İsmayılov, Sədaqət Bağırova və Ceyhun Əliyev aparatın Ümumi şöbəsinin müdiri Tələtüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İlqar Fərzəliyev və Milli Məclis Aparatı Dövlət qulluğu və kadr məsələləri şöbəsinin əməkdaşları aparatın Ümumi şöbəsinin müdiri Tələtüm Quliyevə əzizi

**İLQAR ZEYNAL OĞLU CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Bakı şəhəri Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Ümumi şöbənin müdiri Tələtüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatı Ümumi şöbəsinin əməkdaşları şöbənin müdiri Tələtüm Quliyevə əzizi

**İLQAR ZEYNAL OĞLU CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Akif Mustafayevə əzizi

**MAYIL QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin kollektivi məhkəmənin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIM QAFAROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi prokurorluğun veteranı Camal Abbasova anası

**GÜLAB XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Maliyyə Departamentinin Xəzinədarlıq şöbəsinin müdiri Məcid Əhmədova atası

**MÜBARİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin sədri İslam Əliyev və məhkəmənin kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərov və məhkəmənin kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8399
Sifariş 3538